# Paralel

www.paralel.az

İctimai-siyasi qəzet

25 may 2023-ci il

№ 060 (3628)
Qiymətı 50 qəpik


## Gün-Xəbər



### Makki: ... Azərbaycanın cavabını gözləyirik"

*"Dörd saatdan çox davam edən mətbuat konfransı zamanı Ermənistanın baş naziri Nikol Paşinyan ilk dəfə açıq şəkildə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıyacağını bəyan edib. Bu çox mühüm addımdır".*

*"Azadlıq"* radiosu xəbər verir ki, bunu ABŞ Beynəlxalq İnkişaf Agentliyinin Avropa və Avrasiya ofisinin administratorunun köməkçisi Erin Elizabet Makki Nümayəndələr Palatasının xarici əlaqələr üzrə alt komitəsində keçirilən dinləmələrdə deyib.

*"Bu bəyanat çox əhatəlidir"* - Makki Ermənistan-Azərbaycan münasibətlərinə toxunaraq deyib.

*"Biz Azərbaycanın cavabını gözləyirik, lakin bu, irəliləyişdir"*, - amerikalı diplomat vurğulayıb.



### Erməni deputat: "Gündəmdə sülhdən başqa variant yoxdur"

*"Gündəmdə sülhdən başqa variant yoxdur".* Bunu Ermənistanın hakim Mülki Müqavilə Partiyasından olan deputat Gevorq Papoyan deyib. O bildirib ki, ya Türkiyə və Azərbaycanla müharibə aparılmalı, ya da sülh yolu seçilməlidir: *"Bəziləri müharibə barədə danışırlar. Amma mənim üçün Ermənistanın mövcudluğu hər şeydən vacibdir. Biz dinc yolla getməliyik, bunun alternativi yoxdur".*

# Azərbaycanda inflyasiya qlobal inflyasiyadan 1,5 dəfə çoxdur



*"Ötən il Azərbaycanda ümumi qiymətlər 13,9 %, ərzaq məhsullarının isə qiymətləri isə 20 % ətrafında artıb. Çox işlənən ərzaq məhsulları daha sürətlə bahalaşsa da, bu, nəzərə alınmır. Bizdə ancaq idxal inflyasiyası öyrənilir. Nazirlər Kabinetindən tutmuş bütün rəsmi hökumət dairələrinin hesabatında inflyasiyanın bir qolu - idxal inflyasiyası əks etdirilir. Bu, yumşaq desək, yarımçıq xarakter daşıyan məsələdir. Faktiki hazırda bizdə inflyasiya qlobal inflyasiyadan 1,5 dəfə çoxdur",* - deyə o, qeyd edib.

## Türkiyədə seçki düşmənlə döyüşə bənzəyir



Ərdoğanın yenidən Türkiyə prezidenti seçilməsi gözlənilir

Səh.3

## Teatr məkanımızda müsbət irəliləyişlər var



Çatışmayan «Xanuma» kimi əsərlərdir

Səh. 5

## Fermerlər bitkicilikdən qaçır



Azərbaycanda əkin sahələri hansı səbəbdən azalır?

Səh. 6



# Pakistanda sular durulmur

**İmran Xan geri çəkilmək istəmir**

Pakistan Ədalət Hərəkatı Partiyasının (PTI) lideri, sabiq baş nazir İmran Xan mühakimə olunduğu məhkəmədə iştirak etmək üçün Lahordan paytaxt İslamabada gəlib.

Terrorizmlə Mübarizə Məhkəməsi sabiq baş nazirin mühakimə edildiyi 8 iş üzrə iyunun 8-dək girov müqabilində azadlığa buraxılmasına qərar verib.

2022-ci ilin aprelində vəzifəsindən uzaqlaşdırılan Xana qarşı 90-dan çox məhkəmə iddiası var.

Məhkəmədən sonra İmran Xan Əl-Qadir Universiteti işi ilə bağlı Ravalpindideki Milli Hesabat Bürosuna (NAB) gedib və burada dindirilib. Sorğu-sualdan sonra Lahora qayıdıb.

2022-ci ilin iyununda koalisiya hökuməti iddia edib ki, Xan və həyat yoldaşı Əl-Qadir Universitetini tikmək üçün Pakistanın daşınmaz əmlak maqnatı Malik Riyazdan bahalı böyük torpaq sahəsi və milyardlarla rupi alıb. NAB Xan hökumətinin Riyazla müqavilə bağladığını və bunun milli xəzinəyə 239 milyon dollardan çox zərər vurduğunu bildirir.

2019-cu ilin dekabrında Riyaz pulla bağlı araşdırma çərçivəsində aktivləri, o cümlədən 239 milyon dollar dəyərində əmlakı Böyük Britaniyanın Milli Cinayətlər Agentliyinə təhvil verməyə razılaşıb.

Pakistan daxili işlər naziri Rana Sanaullahın sözlərinə görə, Britaniya rəsmiləri "çirkli pulların yuyulması" ilə əlaqədar Pakistana 239 milyon dollar qaytarıb, amma Xan pulu milli xəzinədə saxlamaq əvəzinə Riyaza verib.

PTI lideri İmran Xan NAB tərəfindən irəli sürülən ittihamları əsassız hesab edir.

Ötəm ilin aprelində Pakistan parlamentində keçirilən etimad səsverməsində İmran Xan hökuməti iqtidardan uzaqlaşdırılıb. İmran Xanı Şahbaz Şərifin rəhbərlik etdiyi koalisiya hökuməti əvəzləyib.

Xan koalisiya hökumətinin erkən seçkidən imtina etdiyini əsas gətirərək ötən il oktyabrın 28-də Lahordan İslamabada yürüşə başlayıb. Noyabrın 3-də Vəzirabadda konvoyu atəşə tutularkən Xan hər iki ayağından yaralanıb. Hücum nəticəsində 1 nəfər ölüb, 13 nəfər yaralanıb.

Pakistan ordusu mayın 8-də Xanın ona qarşı sui-qəsdin arxasında yüksək rütbəli kəşfiyyat rəsmisinin dayanması ilə bağlı iddialarını "məsuliyyətsiz və əsassız" adlandırıb. Bundan bir gün sonra NAB-ın qərarı ilə saxlanılıb.

Mayın 11-də Konstitusiya Məhkəməsi İmran Xanın həbsini qanunsuz hesab edərək dərhal azadlığa buraxılmasına qərar verib.

# Aleksandr Xramçixin: "KTMT-nin Rusiyadan başqa heç bir üzvü Ermənistana kömək etmək istəmir"

Ermənistanın baş naziri Nikol Paşinyanın sonuncu uzun-uzadı çıxışı artıq sitatlara bölünüb. Onun nitqinin bloklarından biri, bildiyiniz kimi, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə bağlı idi. Nikol Paşinyan Ermənistanın KTMT missiyasını niyə qəbul etmədiyini izah edib: Sən demə, bütün məsələ bu təşkilatın *"Ermənistanın sərhədlərini müəyyən etməməsi"*ndədir və KTMT bunu aydın şəkildə müəyyən edəndə *"problemlərin 90%-i həll olunacaq"*.

Paşinyanın sözlərinə görə, Ermənistanın KTMT təlimlərində iştirakı məsələsi hələ də müzakirə olunur. Bundan başqa, Ermənistanın baş naziri ölkənin KTMT-dən çıxmasını istisna etməyib, lakin bu, o zaman baş verəcək ki, İrəvan *"KTMT-nin Ermənistandan çıxdığını müşahidə edəcək"*.



Paşinyanın çıxışında daha bir çox maraqlı məqam Ermənistanın xarici hərbi texnika alması ilə bağlı olub. Onun sözlərinə görə, Ermənistanın KTMT-yə üzv olması buna mane olub.

Məgər bu təşkilat öz üzvlərinin Qərb silahlarını əldə etməsini məhdudlaşdırır? Bu suala Rusiyanın aparıcı hərbi ekspertlərindən biri, Rusiya Siyasi və Hərbi Təhlil İnstitutunun direktor müavini Aleksandr Xramçixin cavab verib:

- Təbii ki, KTMT-də xarici hərbi texnikanın alınmasına qadağa yoxdur. Məsələn, Qazaxıstan Qərbdən silah alırdı. Ermənistanda isə vəziyyət başqadır və mən özüm bu barədə bu yaxınlarda, erməni jurnalistlə söhbət edərkən öyrəndim. O mənə dedi ki, Ermənistan, həqiqətən də, Qərb silahlarını almaq istəyib, lakin onlara satılmayıb. İmtina çox sadə izah edilib: Ermənistan KTMT-nin üzvüdür, ona görə də Rusiya bu silahları ala bilər. Görünən odur ki, Nikol Paşinyan da bunu nəzərdə tutub.

***- Ermənistanda ölkənin KTMT-dən çıxması ilə bağlı müzakirələr davam edir. Bunu son günlər Ermənistanın baş naziri, xarici işlər nazirinin müavini, ölkənin Təhlükəsizlik Şurasının katibi və bir çox başqa dövlət və siyasi xadimləri deyiblər. Bu mövzuda müzakirələr uzun müddətdir ki, davam edir, lakin son vaxtlar çox fəallaşıblar. Siz bu barədə nə düşünürsünüz?***

- Bəli, aydındır ki, Ermənistanın KTMT-dən çıxması ilə bağlı çox fəal müzakirələr gedir. Amma ola bilsin ki, qəlblərinin dərinliklərində haradasa təxmin edirlər ki, Ermənistan KTMT-dən çıxsa, o zaman onları heç kim müdafiə etməyəcək. Digər tərəfdən, görünür, Qərb Ermənistan tərəfinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxmasını tələb edir.

Obyektiv desək, Ermənistan KTMT-dən çox şey əldə etmir. Təşkilatın bütün üzvlərindən yalnız Rusiya Ermənistan Respublikasına hansısa formada kömək etməyə hazırdır. KTMT-nin üzvü olan bütün digər ölkələr bunu qətiyyən istəmirlər.

***- KTMT-dən çıxmaqla bağlı xeyli danışılır, qurumla bağlı neqativ bəyanatlar verilir, təşkilatın Ermənistanda təlimlərini keçirməkdən imtina edilir, amma nədənsə İrəvan hələ də bu hərbi alyansın tərkibində qalır...***

- Ermənistanın KTMT-dən çıxmasına mane olan şey, bu baş verəcəyi təqdirdə indikindən də pis olacağı anlayışıdır. Ən azından, İrəvanda kimlərdəsə belə hiss var.

***- Ermənistanda Avropa İttifaqının missiyası var, lakin Moskvanın Ermənistana öz kontingentini göndərməyə hazır olduğu barədə bəyanatlarına baxmayaraq, KTMT nümayəndələri buraxılmayıblar. Paşinyan vəziyyəti KTMT-nin "Ermənistanın sərhədlərini müəyyən etməməsi" ilə izah edib. Bu çox qəribə bəyanatdır, çünki sərhəd şərtidir, ilk növbədə delimitasiya edilməlidir və Ermənistanın bununla bağlı problemləri var...***

- Bildiyimə görə, Ermənistan sərhədin müəyyənləşdirilməsində bir az sabotaj edir. Bu, yeri gəlmişkən, Rusiyanı da müəyyən qədər qıcıqlandırır.

***- Ancaq deyəsən, Moskvadan bununla bağlı səs-küy çıxmadı...***

- Səs-küy nəyə lazımdır? Rusiya bunu etməyəcək. Düzünü desəm, o heç bu hayda deyil.

***- Ermənistanın KTMT-də havadan asılı iştirakı, mənim anladığım qədərilə, davam edəcək. Hələlik belədir? İrəvanın yekun qərarı üçün nə baş verməlidir?***

- Bu sualın cavabı məndə yoxdur. Anladığım qədərilə, elə Ermənistanın özündə də yoxdur.

# "Qərb Çinlə müharibədən qaçmaq üçün Ukraynanın qələbəsini təmin etməlidir"

**Qərb ölkələri Çinlə müharibədən qaçmaq istəyirlərsə, Ukraynanın qələbəsini təmin etməlidirlər.**

Bunu ABŞ ordusunun Avropadakı keçmiş baş komandanı, istefada olan general-leytenant Ben Hodges "The Times" qəzetinə müsahibəsində deyib.

Hodges deyib ki, Qərb liderləri Ukraynanın müharibədə qalib gələcəyini açıq şəkildə bildirməlidirlər. *"Sonra Ukraynaya lazımi qədər silah göndərməlidirlər. Co Bayden, Rişi Sunak, Olaf Şolts deməlidir ki, biz Ukraynanın qalib gəlməsini istəyirik. Əgər bunu etsəydilər, bu müharibə ilin sonuna qədər bitərdi "*, deyə general vurğulayıb.

Hodges hesab edir ki, Qərb bunu etməsə, Çin yeni müharibəyə başlayacaq. *"Əgər bunu etməsək, çinlilərin Tayvan və ya Cənubi Çin dənizi haqqında danışmağımızdan çox təsirlənəcəyini düşünmürəm. Və bu, daha çətin müharibə olacaq"*.

O vurğulayıb ki, Ukrayna mütləq Krım yarımadasını geri almalıdır. *"Rusiya Krımı alarsa, onların geri qayıtmasına cəmi bir neçə il keçəcək. Xəritəyə baxsanız, görərsiniz ki, Krım Ukraynanın mədəsinə xəncər kimidir"*, - amerikalı general əlavə edib.



## Ağazaryan: "Bunu etsək, Azərbaycan müharibəyə başlaya bilər"

*"Azərbaycanın ərazi bütövlüyünü tanıdığımızı bir daha təsdiqləyirik".*

Bunu Ermənistan parlamentinin deputatı Ovik Ağazaryan deyib. Deputat vaxtilə Baş nazir Nikol Paşinyanın "Qarabağ Ermənistandır" mesajı ilə bağlı çox spekulyasiyaya yol verildiyini bildirib. Onun iddiasına görə, bu, konkret dövrdə, konkret şərtlər daxilində söylənilib. Ağazaryan qeyd edib ki, bu fikir Qarabağda ermənilərin yaşaması ilə əlaqəlidir. O, buna misal kimi vaxtilə ermənilərin yaşadıqları Qars və Ərdəhanı (Türkiyə şəhərləri) misal göstərib.

Siyasətçi Azərbaycanın ərazi bütövlüyünü tanıyan Paşinyanla həmfikir olduğunu da vurğulayıb: *"Biz Azərbaycanın ərazi bütövlüyünü tanıdığımızı bir daha təsdiqləyirik, ona görə də təsdiq etmək istəyirik ki, bəzi yerli problemlər istisna olmaqla, Azərbaycanla sərhəd problemimiz yoxdur".*

Ağazaryan qeyd edib ki, Qarabağ məsələsi Ermənistan-Azərbaycan münasibətlərindən ayrılmalıdır: *"Bu, bizim dövlət baxışımızdır".*

Deputat dolayı yolla Qarabağın Azərbaycan ərazisi olduğunu da etiraf edib: *"İndi həm Azərbaycanın ərazi bütövlüyünü tanıyıb, həm də Qarabağın statusu ilə bağlı qərar versək, bu, Azərbaycana bizə müharibə elan etmək üçün qanuni haqq verəcək".*

Bununla yanaşı, Ovik Ağazaryan Qarabağla bağlı ermənilərin illərdir gündəmdə saxlamağa çalışdığı separatçı iddialara da "haqq" qazandırıb. Onun iddiasına görə, Azərbaycanla sülh müqaviləsi bağlandıqdan sonra Qarabağ ermənilərinin "öz müqəddəratını təyin etmə hüququ" ilə bağlı "mübarizə" aparacaqlar.

Ağazaryan Ermənistanın hakim "Vətəndaş Müqaviləsi" Partiyasının üzvüdür.

# Türkiyədə prezident seçkisi düşmənlə döyüşə bənzəyir

## Ərdoğanın yenidən Türkiyə prezidenti seçilməsi gözlənilir

**Əvvəlcə qeyd edim ki, ölkədaxili siyasətində xeyli nöqsan və qüsurlara yol verdiyinə, Türkiyəni iqtisadi tənəzzüldən çıxara bilmədiyinə, ölkədə demokratiya basqıya məruz qaldığına, avtoritarizm gücləndiyinə görə, Ərdoğanın prezident fəaliyyəti müxalifət tərəfindən tənqid olunur.**

Lakin bir həqiqəti də qeyd edək ki, Mustafa Kamaldan sonra Türkiyəyə rəhbərlik etmiş baş nazirlərin, prezidentlərin heç biri Ərdoğan qədər Türkiyə dövlətini gücləndirən, xalqın başını ucaldan ikinci rəhbər olmayıb. Ərdoğanın prezident kimi imza atdığı uğurları xatırlamaq üçün onun hakimiyyətdə olduğu son 21 il ərzində Türkiyə üçün etdiklərinə nəzər salmaq lazımdır. Ərdoğanın uğurlarını sıralayarkan Türkiyə dövlətini ABŞ və Qərb ölkələrinin diqtəsilə idarə olunmasına son qoymasını, Türk dünyasını birləşdirməsini, "Quran"ı yandıran din düşmənlərini dərhal ifşa etməsini, Türk–İslam dünyasını Qərbin təhqirdən və böhtandan müdafiə etməsini, Türk Dövlətləri Təşkilatını yaratmasını, Azərbaycanın işğal altında olan torpaqlarının azad olunmasını etiraf etmək lazımdır.

Ərdoğanın üstünlüklərindən digər biri də odur ki, Qərb özünün "beynəlxalq demokratik dəyərlər" silahından istifadə edib, islam əxlaqına tapınan dünyamızı qara rəngə boyamağa çalışan məkrli xristian dövlətlərinin caynağından Türk–İslam dünyasını azad etməsidir. Ona görə də, ABŞ və Qərb uzun illər məqsədli şəkildə Türkiyə dövlətinin daxilinə sızdırdığı, vətəndaşlıq qazanmış, müxalifət libasına bürünmüş, xarici düşmənlərin tapşırıqlarını həvəslə yerinə yetirən FETÖ-çu düşmən qüvvələrlə Türkiyədə dövlət çevrilişi etməyi bacarmadılar.

Amma prezident kürsüsünü Kılıcdaoğlu vasitəsilə ələ keçirməklə, Türkiyəni köhnə əyyamlara qaytarmağa çalışırlar. Bu cür çirkin məqsədlərinə çatmaq üçün düşmən Türkiyədə keçiriləcək prezident seçkilərinin ikinci turunda xalqı Ərdoğana qarşı qaldırmaq üçün yalan və böhtandan istifadə etməyə çalışır.

Türkiyə müxalifətinin prezidentliyə namizədi Kamal Kılıcdaroğlunu prezident kürsüsünə əyləşdirmək üçün türk düşmənlərinin onun arxasında birləşdirdiklərinə diqqət edin. Türkiyəni parçalamaq üçün çoxdan hazırladığı, silahlandırdığı və hərəkətə keçirdiyi PKK, ASALA, FETÖ terror təşkilatları və onların himayədarları bir sırada dayanıblar. Bundan əlavə, bu təşkilatları daim "insan haqları və beynəlxalq demokratik dəyərlər"in Türkiyə tərəfindən pozulması pərdəsi altında müdafiə edən ABŞ və Avropanın xristian dövlətləri, Türkiyə dövlətini açıq-aşkar parçalamaq planı ilə siyasi fəaliyyətə qoşulan HDP və digər bu tipli siyasi don geyinmiş təşkilatlar türk xalqına basqı yapır və Ərdoğanı deyil, Kamal Kılıcdaroğlunu prezident seçdirməyə cəhd edirlər. Dünya siyasətindən baş açmayan, Türkiyə dövlətini zəiflətmək, Türk-İslam dünyasının birləşməsinin qarşısını almaq üçün xarici və daxili düşmənləri israrla müdafiə edənlər milliyyəti bəlli olmayan Kılıcdaroğlunu Türkiyəyə prezident seçməklə məqsədlərinə çatacaqlarına ümid edirlər.

Gəlin, Kamal Kılıcdaroğlunun ətrafına toplaşan müxalifətin tərkibinə diqqət edək, görək onu prezident seçmək üçün dəridən-qabıqdan çıxanlar kimlərdir və məqsədləri nədir? Əvvəl adını "6-lı masa" qoyduqları müxalifət sırasına HDP-ni də cəlb etməklə, "6-lı masa"nı "7-li masa"ya çevirdilər. Prezidentliyə namizəd Kamal Kılıcdaroğlu özü və onun ətrafında birləşənlər – Maral Akşener, Əkrəm İmamoğlu, Mansur Yavaş, Əhməd Davutoğlu, Əli Babacan, Təməl Qaramollaoğlu təbliğat-təşviqat kampaniyasında namizədlərinin heç bir terrorçu təşkilatlarla bir masa arxasında oturmadığını və bundan sonra da oturmayacağını tez-tez təkrar etsələr də, Kamal Kılıcdaroğlunun PKK-nı dəstəkləyən HDP ilə bir masa arxasında oturmasını əks etdirən videolar hər gün Türkiyə televizyalarının ekranlarında xalqa nümayiş etdirilir. Bu videolar heç də Kamal Kılıcdaroğlunun sabiq CHP başqanı, mərhum Dəniz Baykala və hazırkı seçkilərdən prezidentliyə namizədlərdən biri olmuş, CHP tərəfindən təşkil olunan şantaj videoları ilə namizədlikdən geri çəkilməyə məcbur edilən, hazırda xəstəxanada müalicə alan Məhərrəm İncəyə qarşı təşkil etdiyi saxta montaj videosu deyil. Türkiyənin efir və ekranlarda xalqın hər gün izlədiyi görüntülər Kamal Kılıcdaroğlunun PKK terror təşkilatını himayə edən HDP rəhbərlərilə bir masa arxasında oturduğunu əks etdirən gerçək videolardır.

Altını cızmaqla, oxuculara onu da xatırladım ki, ABŞ-ın, Avropa dövlətlərinin, o cümlədən bütövlükdə inkişaf etmiş Qərbin Türkiyədə keçirilən hər bir seçki prosesinə müdaxiləsi ənənəyə çevrilib. Türkiyəyə nisbətən, insan haqları və dünyəvi demokratik dəyərləri öz ölkələrində həyata keçirən və insanların normal yaşayışını təmin edən, lakin açıq əxlaqsızlıq məkanı sayılan Qərb ölkələri dünyanın digər ölkələrini, o cümlədən, Türkiyəni öz təsiri altına salmaq üçün qara piardan istifadə edir. Bu cəhətdən gün artan nüfuzundan qorxurlar. Onlar yaxşı bilir ki, Kamal Kılıcdaroğlu kimi siyasətin əlifbasını bilməyən, dünyada gedən siyasi proseslərdən baş çıxarmayan bir ünsür Türkiyəyə prezident seçiləcəyi halda, Ərdoğanın siyasi arenada fəth etdiyi zirvəyə heç vaxt yüksələ bilməz. Qərb dövlət rəhbərlərinə də Kılıcdaroğlu kimi əfəl lazımdır ki, Türkiyə dövlətinin imkanlarından bəyan edən Kılıcdaroğlu ilə bir masa arxasında oturmaq belə, cinayətdir.

Beləliklə, iki qardaş ölkə arasında düşmənçilik cəbhəsi yaratmaq istəyən zatın mayın 28-də Türkiyədə keçiriləcək ikinci tur prezident seçkisində türk xalqına və dövlətinə layiq rəhbər olan Ərdoğanı qoyub, Kılıcdaroğlunu Türkiyə prezidenti seçəcəyinə inanmaq çətindir.



Türkiyədə keçirilən prezident seçkisi Qərbin fasiləsiz və ardıcıl hədəfinə çevrilib.

Kamal Kılıcdaroğlunu Türkiyənin prezidenti kürsüsündə əyləşdirmək üçün ABŞ-ın özünü idarə edə bilməyən, yeriyəndə büdrəyib yıxılan, qocalıb əldən düşmüş, qulağından ölüm iyi gələn prezident Cozef Bayden, Fransanın homoseksul prezidenti Makron, Yunanıstanın mafioz baş naziri Kiriakos Mitsotakis və digər düşmənlər çox ciddi cəhdlə çalışırlar. Qərbə görə, idarəolunmaz beynəlxalq siyasi füqura çevrilən Ərdoğanın yenidən Türkiyə prezidenti seçilməsi yolverilməzdir. Rusiya-Ukrayna müharibəsinin gedişində müharibə edən hər iki tərəflə münasibətləri Ərdoğanın normal məcraya yönəltməsi, onları bir masa arxasında əyləşdirməsi, Ukrayna taxılının Qara dənizdən Türkiyənin nəzarətində olan boğazlar vasitəsilə dünyanın müxtəlif ölkələrinə təhlükəsiz yola salmasını təmin etməsi Qərbi çox narahat edir. Ərdoğanın bu istiqamətdə fəaliyyətini dünya ictimaiyyətinin yüksək qiymətləndirməsi də Qərbə xoş gəlmir.

Eyni zamanda, Qərb dövlətlərinin rəhbərləri Türkiyə prezidentinin dünyada hər dan çirkin məqsədlər üçün sərbəst istifadə etsinlər.

Tarixə baxın, Ərdoğan yeganə Türkiyə prezidentidir ki, Azərbaycanla dostluq və qardaşlıq bağlarını sözdə yox, əməli işdə həyata keçirir. 2020-ci ildə 44 günlük Azərbaycan-Ermənistan arasında baş verən Vətən müharibəsində Türkiyənin Azərbaycanın yanında olduğunu açıq bəyan etməsi və işğal altındakı torpaqların azad olunmasındakı rolunu xalqımız yüksək qiymətləndirir. Ərdoğan bu hərəkətilə vaxtı ilə CHP-nin Azərbaycan türklərinə qarşı etdiyi çinayəti - Stalindən qorxaraq, Türkiyəyə sığınmış azəri türklərini bolçeviklərə təslim edərək, Bolatan körpüsündə həmin insanların bolşeviklər tərəfindən vəhşicəsinə güllələnməsi cinayətinin əvəzini çıxdı. Azərbaycanın çətin və dar günündə hər cür dəstək verən Türkiyə prezidenti Ərdoğanın və ətrafının 21 illik şərəfli fəaliyyətinə yalan, böhtan və əxlaqsız üsullarla kölgə salmağa çalışan CHP-nin prezidentliyə namizədi Kamal Kılıcdaroğlu ölkəmizə düşmən kəsilmiş ünsürlərdən daha təhlükəlidir. Hətta həyasızcasına tarixi "İpək yolu" layihəsinin Azərbaycandan keçməsinə qarşı olduğunu ekranlar-

Bütün müsbət keyfiyyətlərlə yanaşı, təbii ki, Ərdoğan hakimiyyəti nöqsansız da deyil, hər bir hakimiyyətdə olan rəhbər kimi, idarəetmədə səhvlər, nöqsanlar var və ümid edirik ki, buraxılmış səhvlər Ərdoğan yenidən prezident seçildikdən sonrakı dönəmdə aradan qaldıracaq, Türkiyənin daxili siyasətində yol verilmiş nöqsanların səbəbləri dərindən araşdırılacaq. Türkiyədə hamı duyur ki, Ərdoğanın yenidən Türkiyə prezidenti seçilməsinə ciddi ehtiyac var...



*Tapdıq ABBAS*
*Təsisçi,*
*"Əməkdar mədəniyyət işçisi",*
*Pedaqoji fəlsəfə doktoru,*
*Qarabağ müharibə veteranı*
*t.abbas1952@list.ru*

# "Azərbaycan mediası beynəlxalq prinsiplərlə fəaliyyət göstərməlidir"

## Tapdıq Abbas: “Media haqqında” qanuna dəyişiklik edilməlidir”

**“Azad Jurnalistlər Təşkilatının” dönəm sədri, “Paralel” Holdinqin rəhbəri, Qarabağ müharibəsinin qazisi, Pedaqogika üzrə fəlsəfə doktotu, “Əməkdar Mədəniyyət işçisi” Tapdıq Abbas sualımızı cavablandırıb.**

*- Tapdıq bəy, ölkədə jurnalist təşkilatlarının çox olduğu halda, “Azad Jurnalistlər Təşkilatı”nı yaratmaq niyə zərurətə çevrildi?*

- Düz vurğuladınız, səhv etmirəmsə, hazırda ölkədə 30-a yaxın jurnalist təşkilatı var. Amma bu təşkilatların heç biri ölkə mediasının inkişafı istiqamətində, demək olar ki, səmərəli iş görmürlər, müstəqil jurnalistlərin problemlərilə maraqlanmırlar. Açıq söyləmək lazımdır ki, ölkədə fəaliyyət göstərən jurnalist təşkilatlarının rəhbərlərinin əksəriyyəti medianın, azad və müstəqil jurnalistlərin problemlərini həll etməklə məşğul olmurlar, şəxsi maraqlara xidmət edirlər və hər məqamda tənqid yazan jurnalistlərin fəaliyyətini məhdudlaşdıran, rüşvətxor məmurları müdafiə edən hakimiyyətin mövqeyini dəstəkləyirlər. Bu səbəbdən “Azad Jurnalistlər Təşkilatı”nın yaradılması zərurətə çevrildi.

*- Azad Jurnalistlər Təşkilatı” öz fəaliyyətini hansı əsaslar üzərində quracaq, mətbuatı, azad və müstəqil jurnalistlərin fəaliyyətini məhdudlaşdıran hakimiyyətlə münasibəti necə olacaq?*

- Əvvəlcə onu qeyd edim ki, ilyarım əvvəl qəbul olunmuş “Media haqqında” qanunun bəzi müddəaları azad və müstəqil jurnalistlərin fəaliyyətini məhdudlaşdırır. Bu qanun isə beynəlxalq demokratik media qanunlarının mövqeyilə ziddiyyət təşkil edir. Dünyanın demokratik inkişaf yolu seçmiş dövlətlərin heç birində media orqanlarının və jurnalistlərin “media reystiri”ndən keçməsi barədə qanun yoxdur. Media dünyada hökumətlərin fəaliyyətinə ictimai nəzarət funksiyasını həyata keçirən orqan olduğu halda, Azərbaycan hökumətinin ölkədə fəaliyyət göstərən media orqanlarının fəaliyyətinə nəzarət etməsi çox böyük yanlışlıqdır və buna son qoyulmalıdır. Bunun üçün “Medai haqqında” qanunun beynəlxalq təşkilatların təsbitləriylə ziddiyyət təşkil edən bır sıra maddələri dəyişilməlidir.



*- Azərbaycanda “Diffomasiya haqqında” qanunun qəbul olunması gecikir, bu gecikmənin səbəbini nə ilə izah edərdiniz?*

- “Diffomasiya haqqında” qanunun Azərbaycanda qəbul olunmasına qarşı ciddi müqavimət mövcuddur. Təəssüf ki, Milli Məclisdə qanunun qəbul olunmasına müqavimət göstərənlər arasında deputat -jurnalistlər çoxuq təşkil edir. Bunların əksəriyyəti bəhanə edir ki, guya, ölkədə “Diffomasiya haqqında” qanun qəbul olunarsa, qan su yerinə axar. Mane olanların bir qismi də ölkəmizin müharibə vəziyyətində olmasını bahanə edir. Gəlin, hazırda müharibə vəziyyətində olan Rusiya və Ukrayna dövlətləri arasında qanlı müharibə getdiyi şəraitdə medianın fəaliyyətinə nəzər salaq. Baxın, müharibə şəraitində medianın rolu müharibədə istifadə olunan ağır silahlardan heç də az deyil.

***Söhbətləşdi: Şahnaz Salehqızı***

# Sığortalı kreditləri də varislər ödəyəcək?

Həyat sığortası ilə kredit götürmüş və ya əmlaka sahib olmuş şəxslərin varislərindən ödəniş tələb edilə bilməz.

Bunu Milli Məclisin deputatı Vüqar Bayramov Konstitusiya Məhkəməsinin Mülki Məcəllənin 269, 317.1, 319.1 və “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun 34.1-ci maddələri ilə bağlı qərarını şərh edərkən deyib. O qeyd edib ki, həyat sığortasının da əsas özəlliyi məhz borclanan dünyasının dəyişərsə qalan xərcin sığorta şirkəti tərəfindən ödənilməsidir.

*"Sığortalanan dünyasını dəyişən zaman bu öhdəliklər də qarşılanır. Bu baxımdan, əgər həyat sığortasında kredit məbləği tam olaraq nəzərə alınırsa, o halda varisdən heç bir ödəniş tələb edilə bilməz. Borclanan həyat sığortası üzrə həmçinin ona görə ödəniş edir ki, dünyasını dəyişərsə varisindən vəsait tələb olunmasın.*

*İndi hətta daxili ipoteka kreditlərinin böyük əksəriyyətində həyat sığortası əsas şərtərdəndir. Bu baxımdan, nəinki İpoteka Krediti və Zəmanət Fondu tərəfindən verilən ipoteka kreditlər, hətta daxili kreditlər üzrə də sığorta varsa, o zaman varisə heç bir öhdəlik buraxılmır. Qalan məbləğ şığorta şirkəti tərəfindən qarşılanır. Əslində, bu həm də ondan xəbər verir ki, həyat sığortasından istifadə varis üçün öhdəlik yaratmır ".*



Qeyd edək ki, Konstitusiya Məhkəməsinin dünən dərc olunan qərarına əsasən vəfat edən şəxsin ipoteka krediti borcunu vərəsələri ödəyəcək. Qərarda bildirilir ki, Mülki Məcəlləyə uyğun olaraq, borclunun ölümündən sonra mirası qəbul etmiş vərəsələr miras açıldığı gündən onlara çatan miras payı həcmində miras qoyanın kreditorları qarşısında birgə məsuliyyət daşıyırlar.

Eyni zamanda Mülki Məcəllə və “İpoteka haqqında” qanuna uyğun olaraq, əsas öhdəlik üzrə borclu, o cümlədən əsas borclunun ölümü halında vərəsələr öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə (əsas öhdəlik pozulduqda) kreditor ipoteka predmetinə tutmanın yönəldilməsi barədə iddia qaldıra bilər.

***Aytən Zəhra***




# Respondentlərin 42,7%-i bu il Ermənistanla sülh müqaviləsinin imzalanacağına inanır - SORĞU

Azərbaycanda respondentlərin təxminən yarısı bu il Ermənistanla sülh müqaviləsinin imzalanacağına inanır.

Bu barədə Sosial Tədqiqatlar Mərkəzinin (STM) keçirdiyi sorğunun nəticəsində məlum olub.

Rəy sorğusunun nəticələrinə əsasən, sorğuda iştirak edən vətəndaşların təqribən yarıya yaxını - 42,7%-i bu ilin sonuna kimi sülh müqaviləsinin imzalanacağını bildirib. 39,1% respondent əks mövqedə qərarlaşaraq sülh müqaviləsinin 2023-cü ilin sonuna kimi imzalanacağını düşünmür. Göründüyü kimi, Ermənistanın sülh müqaviləsinin imzalanmasına hazır olmaması və bu fonda sülh prosesinə kənar dövlətləri daxil etməklə fərqli “sülh” formatına nail olmaq cəhdləri və qeyri-konstruktiv siyasi davranışları Azərbaycan ictimai rəyinə təsirsiz ötüşməyib.

Sorğuda iştirak edənlərin 18,2%-i bu sualla bağlı məlumatı olmadığından fikir bildirməkdə çətinlik çəkib.

Qeyd edək ki, sorğular 2023-cü il mayın 14-17-də könüllü iştirak əsasında 18 yaşından yuxarı 384 respondent arasında keçirilib, anonimlik tam qorunub. Sorğularda telefonla müsahibə formasından istifadə edilib və 12 iqtisadi rayon əhatə olunub. Bu məqsədlə müvafiq məlumat bazasından sözügedən iqtisadi və inzibati rayonlara (şəhərlərə) aid stasionar telefon nömrələri təsadüfi qaydada seçilərək zənglər olunub. Sorğunun seçmə çərçivəsi ölkə üzrə əhali sayının paylanmasına proporsional müəyyən edilib və gender balansı qorunub. Nəticələrin əminlik intervalı 95%, xəta payı 5%-ə bərabərdir.



## Elm və Təhsil Nazirliyinin "səriştəsizliyi", yoxsa "əlifba" problemi?

*Professor İdris Abbasov yazır*

Hamı təhsilə görə Elm və Təhsil naziri Emin Əmrullayevi qınayır, amma heç kəs dönüb özünə baxmır.

Nə desin nazir? Desin ki, uzun illər rüşvətə dadanmış nataraz direktorlar, rüşvət verib cəmiyyəti pozan valideynlər və s. həbs olunsunlar?

Problemin nüvəsini dilə gətirmək imkan xaricindədirsə, bir nazir nə etməlidir? Əlbəttə, şaftalı sözünü düz yaza bilməyən müəllimi qınamalı, ya dərslərin filan vaxt başlanmasını gündəm etməli və ya bu kimi 4-cü, 5-ci məsələlərdən danışıb yola verməlidir də.

Başqa nə edə bilər bizimlə?! Rüşvətin istila etdiyi xəstə mühitdə xəstə başlarla nəsə etmək olarmı?! Bir deyil, iki deyil, 10 deyil, 100 deyil....

Eyyuhənnas (ey camaat)! Bilin və agah olun: Təhsildəki problemin əlifbası rüşvətdir! Bu üzüqara əlifbanı dəyişməyincə biz dəyişməyəcəyik, vəssalam.

Qalanları palavra! Özümüzü, düşüncəmizi bədnam əlifbanı dəyişmək istiqamətində səfərbər etməsək, yüz nazir dəyişsək də, təhsilimizin marşrutu dəyişməyəcək!

Şəxsən tanımasam da, camaatın münasibətindən belə başa düşürəm ki, E. Əmrullayev "səriştəsiz" nazirdir, deyilmi? Məsələn, bəzi "çoxbilmiş" sələfləri, nazirlər, rektorlar, direktorlar, akademik-alimlər kimi rüşvət, sövdələşmə, "yaxşılıq etmə", gizlin iş görmə vərdişləri ilə xalqı eyforiyaya, yaxud sakit ölümə qapdıra bilmir.

Görünür, bu işdə son dərəcə təcrübəli sələflərinin üsul və üslubunu mənimsəməyib. Bu 3-4 ildə təhsil cəbhəsindən xalqın anasını ağlatmağın incə metodologiyasına yiyələnə bilməyibsə, deməli, zəif nazirdir, deyilmi?!

"Adam o boyda elm və təhsilin başçısıdır, di gəl ki, villaları, biznes şəbəkələri, pulla, peşkəşlə saxladığı jurnalist ordusu, qoruyucu trolları və s. yoxdur. Belə şeymi olar, ay qardaş?!"

Təhsili təkcə cibgir, büdcəgir nazirlər, nazirliyin milyonçu aparat işçiləri, oğru-rüşvətxor şöbə müdirləri və bu qəbildən olanlar deyil, həmçinin əyriliyə səcdə edən bizlər bu günə qoymuşuq: məktəb partalarından tutmuş universitet auditoriyalarına qədər.

Təhsildəki bərbad vəziyyət xalq olaraq bizim sifarişimizin məhsuludur.

Deməli, təhsili düzəltmək istəyiriksə, ilk növbədə özümüzü düzəltməliyik.

# Teatr məkanımızda müsbət irəliləyişlər var

**Bugünlərdə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Avksenti Saqarelinin "Xanuma" pyesi əsasında hazırlanmış eyniadlı tamaşası nümayiş olundu. Mən də tamaşaya dəvətlilər arasındaydım.**

"Xanuma"ya fərqli illərdə çox baxmışam. Tamaşa həm maraqlıdı, həm də gülməli, o mənada ki, hər komediya ssenarisi, hər aktyor oynadığı rolla tamaşaçını güldürə bilmir.

Yadımdadı, təxminən 2010-2011-ci illərdə bu tamaşaya Dövlət Gənc Tamaşaçılar Teatrında da baxmışdım. O vaxt bu tamaşaya baxmaq üçün çox adam gəlmişdi, hansı ki, o vaxtkı tamaşaçı sıxlığı nadir hallarda olur. Həmin illərdəki baxdığım "Xanuma"ya gürcü rejissoru Qoça Kapanadze quruluş vermişdi. Bu yazını işləyəndə ağlıma gəldi ki, elə o tamaşaçı izdihamının səbəbi də bu imiş, başqa xalqdan olan rejissorun quruluşunda tamaşaya baxmaq marağından qaynaqlanırmış teatra gələnlərin sayının çoxluğu.

Maraqlı bir məqamı qeyd edim ki, "Xanuma" nə zaman səhnələşdirilibsə, təsadüfən hamısına baxmaq mənə də qismət olub. Və hər dəfə də tamaşa bitəndən, evə gələnədək səhnə boyu baş verənləri xatırlayıb gülmüşəm. Bunlar o qədər xoşdur ki... Azərbaycan teatr səhnəsində oynayıb tamaşaçını razı salmaq da asan iş deyil. Özü də, tamaşaçı tələbkar zövqlüdürsə bu məsələni bir az da ciddiləşdirir. O ki ola Vətən, xalq, millətsevər birisi ola seyrici... Bax, onda məsələ ikiqat ciddiləşir.

Öz ölkənin insanlarının mədəni ortamlarda tez-tez görünmələri, teatra, konsertə səliqəli, zövqlə geyinib getmələri mənəvi qida olur adama. Bu dəfə ilk kəsiydi ki, tək getmişdim teatra.

Özünüz də bilirsiniz, teatra gedənlərin sayı həmişə ürəkaçan olmur. Bunun bir neçə səbəbi var. Birincisi odur ki, insanların maddi durumu çox vaxt buna imkan vermir, ikinci səbəb tamaşalarda rol alan aktyor heyətinin, oyunçuların səriştəsizliyi ola bilir, yəni tamaşaçının diqqətini bütünlüklə səhnəyə yönləndirmək xüsusi bacarıq tələb edən işdi, bu bacarıq hər adına aktyor deyiləndə olmur. Digər ciddi səbəb, tamaşa gedən vaxt telefon zəng səsləri, azan səsləri, kiminsə xısın-xısın danışması, boyu qısa tamaşaçının qarşısında oturanın gah sağ, gah sol çiyini üzərindən səhnəyə boylanması, onları qarşıya keçirib rahat şəraitin yaradılmaması və sairə o qədərdi ki. Kimlər üçünsə adi, yaxud bəhanə kimi görünən bu hallar əslində bezdiricidi. Ən pisi də odur ki, belə hallar bu yerlərə getməkdən uzaqlaşdırır adamı.

Nə isə, qayıdaq tamaşaya. Bu dəfə baş rolun, "Xanuma"nın ifaçısı Bəsti xanım Cəfərovaydı. Kral rolunda isə Cəfər Namiq Kamal oynayırdı. Və əlbəttə ki, Səidə xanım Quliyevanın və Hacı İsmayılovun da rol aldığı, oynadığı tamaşa mənə görə pis ola bilməzdi. Digər aktyorlarımız da varıydı ki, hansı ki, unutduğuma görə adlarını bir-bir sadalaya bilmirəm, inciməsinlər. Amma hiss olunurdu ki, hamısı tamaşaçını razı salmaq üçün bütün güclərini sərf ediblər. Bir sözlə, teatrımızın qaymaqları yığışmışdılar səhnəyə. Bəhs etdiyimiz "Xanuma" yuxarıda qeyd etdiyim kimi, gürcü klassikasının məşhur əsərlərindəndi. Demək olar ki, bizim "O olmasın, bu olsun"umuza bənzəyir. Bu əsər zaman-zaman çox ölkələrin səhnələrini bəzəyib. Mən "Xanuma"ya Musiqili Komediya Teatrında da baxmışdım.

İkisində də, həm dram teatrında, həm də komediya teatrında hər zaman yaxşı alınıb. Bildiyimə görə, bu əsər Rusiyada və Türkiyədə də çox məşhurdu. Komediya janrında olsa da, müəllif əsərdə faciəyə bənzər hissələri gülüşə səbəb olacaq tərzdə ifadələndirib. Müqayisəm doğrumu, yanlışmı bilmirəm, mən Xanumanın işini paytaxtımızdakı maklerlərin işinə bənzədirəm. Yəni ev alqı-satqısı ilə məşğul olanlar yaxşı pul müqabilində sənə lazım olan evin alınmasını, yaxud satılmasını təşkil edirlər. Xanuma da eynilə, yaxşı pul müqabilində iki nəfərin izdivacını təşkil edir. Evlənmək istəyənləri, birinin digərindən xəbəri olmadan nə yolla olur-olsun, qol gücünə də olsa birləşdirir. El dilində desək, aradüzəldəndi, ssenarinin dili ilə desək isə "xeyirxahlıqla" məşğuldur. Bu "xeyirxahlığın-



dan" da başına gəlməyən iş qalmasa da, yenə də əməllərindən əl çəkmir.

Xülasə, bu dəfə də tamaşadan samballı rejissor işinin ətri gəlirdi. Aktyorların səhnədə bütün bacarıqlarını sərf edib oynamaları, gözəl səhnə tərtibatı rejissorun mükəmməlliyindən xəbər verirdi. Bu gün Azərbaycan teatr məkanında elə müsbət irəliləyişlər var ki, yaxşı əsərə, yaxşı quruluş verilmiş tamaşaya ehtiyac çoxdu. "Xanuma"ya gəlincə, qeyd edim ki, operetta janrında yazılmış bu əsər, hələ bir neçə il bundan əvvəl Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Beynəlxalq layihə kimi təsdiqini tapmışdı və Azərbaycan teatrına uğur gətirmişdi. Məhz həm də buna görə tamaşanın ərsəyə gəlməsində rolu olanlar öz məsuliyyətlərini yaxşı başa düşürlər və gözəl oyun nümayiş edirlər.



*Şahnaz Salehqızı*

# Fermerlər bitkicilikdən qaçır

## Azərbaycanda əkin sahələri hansı səbəbdən azalır?

**Azərbaycanın iki milyon hektara yaxın kənd təsərrüfatına yararlı torpaq sahəsi var. Bunun cəmi 500 min hektara yaxını, yəni dörddə biri suvarılan torpaqlar hesab edilir. Suvarılan torpaqların isə hər il ən yaxşı halda yarısı normal suvarılır. Deməli, ölkədə cəmi 250 min hektar ərazidən məqsədyönlü məhsuldarlığı əldə etmək mümkündür. Yerdə qalan 1,7 milyon hektardan çox kənd təsərrüfatına yararlı torpaqlarda ya ümumiyyətlə heç nə əkilmir - örüş-otlaq sahəsi kimi istifadə edilir, ya da dəmyə bitkilər əkilir. Dəmyə sahələrdən plana uyğun məhsuldarlıq götürmək mümkün deyil. Çünki dəmyə torpaqlarda məhsuldarlıq yağıntının miqdarından və günəsli günlərin sayından asılı olaraq dəyişir. Onu isə tənzimləmək fermerin imkanları daxilində deyil.**

Azərbaycanın qiymətləndirilən su ehtiyatı 30,9 milyard kubmetrdir. Bunun 33 faizi yerli daxili sular, 66 faizi transsərhəd çayların hesabına formalaşan sulardır. Belə görünür ki, son illərdə yağıntıların azalması, orta illik temperaturun yüksəlməsi su ehtiyatlarının azalmasına, quraqlığa səbəb olur. Bütün bunlar ölkədə əhalinin içməli su təchizatına, eyni zamanda aqrar sektorun suvarma suyu ilə təminatına təsir göstərir.

Bu statistik rəqəmlərə diqqət yetirməkdə məqsədimiz oxucuda Azərbaycanın kənd təsərrüfatı potensialı barədə təsəvvür yaratmaqdır.

Bir haşiyə də çıxaq ki, İsrailin əhalisi real olaraq 10 milyon, kənd təsərrüfatına yarar torpaq sahəsi 950 min hektar, qiymətləndirilən su ehtiyatları 3 milyard kubmetrdir. İsraildə əlavə olaraq hər il 10 milyard kubmetr dəniz suyu saflaşdırılaraq suvarmada istifadə edilir. İsrail cəmi 950 min hektar torpaq, 13 milyard kubmetr su ilə 10 milyon əhali kənd təsərrüfati məhsulları ilə tam təmin edilə bilir.

Yəni əkinə yararlı torpaqlarının sahəsi bizim torpaqların yarısı qədər, su ehtiyatları bizim ehtiyatların 10%-i qədər, əhalisi isə real olaraq bizimki qədərdir. Yuxarıda qeyd etdiyimiz kimi, İsrailin aqrar sektoru ölkə əhalisinin kənd təsərrüfatı mənşəli məhsullara olan yerli tələbatını 100% təmin edir. Əlavə olaraq ölkənin ixracatında kənd təsərrüfati məhsullarının payı 25-30% təşkil edir. Azərbaycanda isə yerli istehsal yerli tələbatın 50%-ə yaxınını qarşılaya bilir. Bununla yanaşı, yerli istehsal ildən-ilə azlmaqdadır. Bu azalma həm məhsuldarlıqda, həm də fiziki olaraq əkin sahələrinin azalmasında özünü biruzə verir.

Məsələn, ötən il kənd təsərrüfati məhsullarının istehsalı orta hesabla 25% azalıb, bu ilin birinci rübü ərzində isə əkinəyararlı torpaqların 12,8%-i boş qalıb. Bu öz təsirlərini ilin sonunda məhsul istehsalı həcminin azalmasında göstərəcək.

Bəs səbəb nədir, məşğul əhali kimi qeydə aldığımız 2,7 milyon nəfər torpaq payçısı - fermer hansı səbəblərdən əkib-bicməkdən imtina edir, münbit torpaqlarımızı boş buraxır?

Birinci səbəb odur ki, hökumətin fermerlərə dəstək (subsidiya) verməsinə rəğmən, hər il fermerlər mövsümü əsasən zərərlə başa vurur, torpaqdan gözlədikləri məhsudarlığ ala bilmirlər. Bunun da özəl səbəbləri var.

Əvvəla, hökumət fermerə verdiyi subsidiyanın 75%-i səmərəsiz xərclənir. Belə ki, fermer aldiği subsidiyanın 75%-ni nəqdləşdirə bilmir. Həmin pulla fermer Kənd Təsərrüfatı Nazirliyinin müəyyənləşdirdiyi şirkətlərdən toxum, gübrə və digər vəsaitlər ala bilər. Nazirliyin müəyyənləşdirdiyi həmin şirkətlər isə əmin-arxayındırlar ki, fermerlərə verilən subsidiya həcminin 75%-i mütləq şəkildə onlara xərclənəcək. Bu təhkimçilik əlaqəsindən sui-istifadə edən şirkətlər xaricdən ən keyfiyyətsiz gübrəni ucuz qiymətə alıb, gətirib fermerə baha qiymətə sırıyır. Nəticədə Nazirliyin müəyyən etdiyi şirkətlər külli miqdarda mənfəət götürür. Fermerlər isə keyfiyyətsiz vasitələrlə istədikləri məhsuldarlığı əldə edə bilmədikləri üçün müflisləşirlər.



Digər tərəfdən, aqroparklardan və yalnız pambıq əkən fermerlərdən başqa əkin növü ilə məşğul olan əkinçilərə su təminatı verilmir. Keyfiyyətsiz vasitələrlə becərilən zəif bitkilər üstəlik, sudan korluq çəkdikləri üçün bir qədər də məhsuldarlıq itirir.

Belədə isə bol sudan genbol istifadə edib, torpaqları sellənmə suvarma üsulu ilə suvaran aqroparklar torpağa lazım olandan çox su verdikləri üçün balanslarında olan torpaq sahələri söranlasaraq ilbəil məhsuldarlığını azaldır.

Bundan əlavə, fermer min bir əziyyətlə yetişdirdiyi məhsulu nə bazarda normal qiymətə sata, nə də onu anbarlarda saxlaya bilmir. Hökumət nə bazarın tənzimlənməsini həyata keçirə bilmir ki, kənd təsərrüfatı məhsullarının sabit və ədalətli qiyməti formalaşsın, nə də fermerləri tərəvəz anbarları ilə təmin edə bilmir. Bu səbəbdən hazırda şimal və cənub rayonlalrında faraş kartof bazarda su qiymətinə satılır. Halbuki cəmi bir ay əvvəl kartof bazarda rekord həddə bahalaşmışdır. Hökumət dünya təcrübəsindən səmərəli istifadə etməklə bazarda bu cür sərt qiymət rəqslərinin qarşısını almalıdır. Əks təqdirdə bazarda müşahidə edilən bu cür qiymət rəqsləri fermerləri ciddi zərərə sala bilər. Zərərə düşən fermer isə artıq gələn il bu il əkdiyi məhsulu əkməyəcək. Nəticədə bazarda qıtlıq və bundan dolayı bahalaşma müşahidə ediləcək.

Əkin sahələrinin azalmasının bir səbəbi də ölkədə pambığın strateji məhsul elan edilməsidir. Ötən il pambıq istehsalı məhsuldarlığın azalması səbəbindən məhsulun az qala yarıbayarı azalması fermerləri ziyana salıb. Ona görə də bu il öz arzusu ilə pambıq əkən fermerlərin sayı kəskin azalıb.

Hökumətin biganəliyi üzündən kənd təsərrüfatı məhsullarının istehsalı azaldıqca bazarda onun yerini idxal məhsulları tutur. Bunun nəticəsidir ki, bu ilin dörd ayı ərzində aqrar mənşəli ərzaq məhsullarının idxalı 20%-dən çox artıb. Bu tendensiyanın çox ağır fəsadları ola bilər. Bu gün ölkəyə idxal edilən kənd təsərrüfatı məhsulları valyutayla alınaraq idxal edilir. Bu valyuta isə Dövlət Neft Fondundan (DNF) təmin edilir. Hər ay DNF hərraca yüz milyonlarla dollar vəsait çıxarır. Bir neçə ildən sonra neftin və qazın tükənməsi qaçılmazdı. Bes o zaman biz valyutanı kimin hesabına satışa çıxaracağıq? Valyuta olmadıqda isə idxal da mümkünsüz olacaq, ölkədə aclıq başlayacaq.

Yaxud da dünyanın proqnozlaşdırmaq mümkun olmayan geosiyasi inkişafı dünya müharibələrinə gətirib çıxara bilər ki, bu da dünya ərzaq zəncirinin qırılmasına səbəb ola bilər. Rusiya-Ukrayna müharibəsi buna bariz nümunədir. Elə geosiyasi kataklizmlər zamanı idxal qapana bilər və o zaman yenə də ölkədə aclıq və qıtlıq hakim ola bilər.

**Bir qədər ümumiləsdirsək, bu gün məlum səbəblərdən kənd təsərrüfatında müşahidə edilən enmələr dövlətin milli təhlükəsizliyinə çox ciddi təhdidlər yaradır. Heç olmasa bu təhdidləri sığortalamaq üçün kənd təsərrüfatının inkişafına diqqət yetirmək vacibdir.**



Akif Nəsirli

### 12 dövlət qurumu hesabat təqdim etməyib



Azərbaycanda 12 dövlət qurumu qanunvericilikdə müəyyən edilmiş hesabat formalarını müvafiq tarixə qədər Hesablama Palatasına təqdim etməyib.

Bu barədə Hesablama Palatasının "2022-ci ilin dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinə və "2022-ci ilin dövlət büdcəsinin icrasına dair illik hesabata" verdiyi rəydə bildirilir.

Sənədə əsasən, bunlar, Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi, "Mir" Dövlətlərarası Teleradio Şirkətinin Azərbaycan Milli Nümayəndəliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti, "BakuBus" MMC, "Aqroservis" ASC, Beynəlxalq Muğam Mərkəzi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi, "Bakı Kristal Zalı" MMC, Minatəmizləmə Agentliyi, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron Hökumətin İnkişafı Mərkəzidir.

# Yaşın ən gözəl çağı olan gəncliyin problemi nədir?

**Müasir dövr demək olar ki, hər gün müxtəlif yeniliklərə imza atır. Bəlkə də hər gün deyil, elə hər saatın özü yeniliklərlə doludur. Bu zənginliyin içində baş itirmək asan, baş saxlamaqsa çətindir. Detallara varmıram, bəlkə də çoxuna adi, amma dərinliyinə varanda əksi olan problemdən bəhs edirik.**

Müqəddiməsiz-filansız, hazırda yeniyetmə və gənclər arasında elektron siqaretdən istifadə halları çoxalıb. Necə deyərlər, bu gün həmin yaş kateqoriyası arasında faiz nisbəti elektron siqaret çəkənlərin xeyrinə işləyir. Yeniyetmə və gənclərin yalan olmasın, yarıdan çoxu elektron siqaret çəkir. Bu hələ dərdin yarısıdır, belə ki, onların sırasında qızlar da az deyil. Yəni qızların "vape" çəkməsi hazırda az qala adi hal alıb. Bəs onlar, yəni qızlar və oğlanlar bunu necə, hansı yolla, harda edirlər?

Sözügedən yaş kateqoriyasında olanlar evdən, yəni valideyn və yaxınlarından aldıqları məktəb xərcliyilə qiyməti 9-10 manat olan bu siqaretləri müxtəlif yollarla aldə edirlər. Bəzi insanların dediyinə görə, həmin siqaretləri böyük marketlərdə əldə etmək çətindir.



## "Müasir"liyin fəsadları...

Çünki orada yaşı 18-dən aşağı olanlara elektron siqaret satmırlar. Lakin bunun da çarəsinin olduğu deyilir. Belə ki, azyaşlılar elektron siqaretləri sifarişlə də əldə edə bilirlər. Çünki həmin vaxt onlardan yaş tələb edən olmur. Hər halda, qeyd edilənləri özümüz arayıb-araşdırmamışıq, söylənilənlərə əsasən, bunu deyirik. Lakin hər bir halda, azyaşlıların bu gün elektron siqaretdən istifadə etməsi problemi yaşanır, bu isə acı bir faktdır.

Deyilənlərə görə, azyaşlılar arasında elektron siqaretlərə tələb artması onlara olunan təkliflə bağlıdır. Bundan başqa, həmin siqaretlərin qoxusu da azlaşlılarda maraq yaradır. Nəticədə, istər-istəməz, yaşı az olanların da elektron siqaretdən istifadə etməsi kimi arzuolunmaz hal yaşanır.

...Bu yazını yazmaq ərəfəsində təsadüfən daxili küçələrin birində iki yeniyetmə qıza rast gəldim. Onların köhnə, istifadəsiz maşın qarajının qarşısında sanki gizlənərək nəsə etmələri diqqətimi çəkdi. Yaxınlaşanda həmin yeniyetmələrin əlində elektron siqaret görməyimin çox diqqətçəkən olduğunu anlayan qızlar teztələsik, az qala qaçaraq ərazidən uzaqlaşdılar. Bu hadisəni bir neçə insanla müzakirə edərkən isə haqqında danışdığım problemin artıq bir müddətdir ki, yaşandığı məlum oldu. Həmsöhbətlərim bəlli problemin məktəb şagirdləri arasında artıq nə zamandır ki, var olduğunu deyərək, fəqət valideynlərin bundan məlumatlı olub-olmadığını bilmədiklərini söylədilər.

Hər halda, hamı öz övladının məktəb adı ilə çıxdığı "yol"da nə etdiyinin fərqində olmalıdır. Eləcə də, onların məktəbdə təkcə təhsil deyil, nə aldığını dəqiq bilməlidir. Əslində, problemin kökü orta məktəblərdə olmasa da, azyaşlı və yeniyetmələr, yuxarı sinif yaşında olanlar bu işlə evdən kənar vaxtda məşğul olurlar. Bu vaxt məktəbə gedilən yolda, hazırlıq və s. müddətdə də baş verə bilər.

Ona görə də, valideyn adlanan hər kəs yeniyetməlik yaşında olan övladının hər bir hərəkətini iki deyil, "dördgöz"lə izləməlidir. Çünki istəməsək də, sözügedən problem var. Həmin problemin az yaşdan başlayaraq hansı fəsadlara yol açdığı isə daha böyük problemlərin "açarı"dır.

Açarı itirməyək, bu isə hər mənadadır. Bağlanan qapıların açılması baş verməyə də bilər.



Nigar Orucova

# Füzulinin icra başçısı Alı Alıyev büdcədən kənar vəsaiti necə mənimsəyir?

**Füzuli Rayon İcra Hakimiyyəti başçısı tərəfindən büdcə vəsaitinin mənimsənilməsi barədə məlumatla tanış olmaq üçün Rayon İcra hakimiyyətinin rəsmi saytına baxdıq. Sözün düzü, bizim rayonun icra başçısı hörmətli Alı Alıyevin personası ilə heç bir problemimiz yoxdur. Amma...**

Əmması odur ki, Füzuli Rayon İcra Hakimiyyətinin rəsmi saytında Alı Alıyevlə bağlı bunlar yazılıb: Ali məktəbi bitirdikdən sonra ... Adama deyərlər ki, ay adam, hansı ali məktəbin, hansı fakültəsini neçənci ildə bitirmisən?

### Sən neçənci ildə anadan oldun?

Vallahi, belə olmaz ee, bu dövlət qurumunun rəsmi saytıdır? Biz bir media olaraq, neçə ildir yazırıq ki, bu biabırçılığı aradan qaldırın. Sözün qısası, hörmətli Alı müəllim, hansısa ali məktəbin hansısa fakültəsini bitirəndən sonra Füzuli rayon komsomol komitəsinin şöbə müdiri olub. Və hansısa ali məktəbi bitirəndən 5 il sonra əsgərliyə gedib, və bir ildə hərbi mayor olub! Lənət şeytana, bu nə oyundur, bir ildə bu adam necə mayor olub?!

Alı Alıyev sonradan 1989–1999-cu illərdə Füzuli rayon Aqrar Sənaye Kombinatının direktoru vəzifəsində çalışıb. 1999-cu ildən 2011-ci elədək Füzuli rayon Suvarma Sistemləri idarəsinin rəisi işləyib. 2011-ci ilin fevralından bu günədək Füzuli rayonu İcra Hakimiyyətinin başçısıdır.

İndi isə keçək əsas mövzuya. Məlumdur ki, bütün dünyada ərazi-inzibati vahidləri özləri özlərini maliyyələşdirir. Düzdür, hər bir inzibati vahidin buna imkanı çatmır. Çünki elə rayonlar var ki, turizm üçün imkanları var, yaxud ərazidə müxtəlif təbii sərvətlər var.




Elə rayonlar var ki, özünü maliyyələşdirmək imkanları çox aşağıdır. Belə olan halda, dövlət büdcəsindən həmin rayonlara subsidiya ayrılır.

Təəssüf ki, bizdə rayonların çoxu dövlət büdcəsinin "boynunda" oturub. Ancaq son illər bu istiqamətdə ciddi addımlar atılıb. Bir çox rayonlar özünümaliyyələşdirməyə keçiblər. "Şəhər və rayonlar üzrə vergi orqanlarının xətti ilə dövlət büdcəsinə nəzərdə tutulan daxilolmalardan büdcə ilinin sonuna artıq daxil olan vəsaitin müəyyən hissəsinin həmin şəhər və rayonların sərəncamında saxlanılması və istifadəsi Qaydası" təsdiq edilib. Lap sadə dildə desək, rayonlar yerli gəlirləri və xərcləri özləri tənzimləyir.

Bu gün haradasa, 50-dən çox rayon özünü maliyyələşdirir. Amma Füzuli rayonu bu sırada yoxdur. Hazırda Füzuli rayonunda büdcə gəlirlərinin mənimsənilməsi əsas mövzumuzdur. Rayonun yerli gəlirlərindən rayon büdcəsinə daxil olan xeyli vəsaitə rayonun icra başçıs Alı Alıyev nəzarət edir. Alı Alıyev xeyli miqdarda vəsaitə şəxsən özü sərəncam verir, kimə və hara istəsə yönəldir.

Maraqlıdır, görəsən, Maliyyə Nazirliyi, Hesablama Palatası nə üçün Alı Alıyevin törətdiyi bu boyda qanunsuzluqlarına göz yumur?

Digər tərəfdən, hamıya bəllidir ki, icra başçılarının nəzarətində ianə fondları var. Yəni kimlərsə, iş adamları, yerli biznesmenlər, yaxud başqa imkanlı şəxslər bu fonda xeyriyyəçilik məqsədi ilə xeyli pul köçürürlər. Buna da nəzarəti cənab Alı Alıyev edir. Xeyriyyəçi insanların köçürdüyü vəsaiti özü üçün sağa-sola xərcləyir. Gələn məlumata görə, Alı Alıyevin yerli büdcə vəsaitlərini mənimsəmə metodunun biri odur ki, başçı öz oğluna deyib ki, əsgərlərə siqaret payla və video çəkib saytlarda paylaş.

Növbəti sayımızda Füzuli rayonunda "Büdcədən kənar vəsaitlərin necə xərclənməsi və yerli iş adamları" yazısı dərc olunacaq. Bizi izləyin.

*Mənbə: Gündəlik-Bakı.com*



## Ümit Özdağ ikinci turda kimi dəstəkləyəcəyini açıqlayıb

**Türkiyədə müxalif "Zəfər" Partiyasının sədri Ümit Özdağ prezident seçkilərinin ikinci turunda kimi dəstəkləyəcəklərini açıqlayıb. "Report" xəbər verir ki, o, bu barədə Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri və "Millət İttifaqı"ndan prezidentliyə namizəd Kamal Kılıçdaroğlu ilə mayın 24-də keçirdiyi birgə mətbuat konfransında deyib.**

Ü.Özdağ prezident seçkilərinin ikinci turunda K.Kılıçdaroğlunu dəstəkləyəcəyini bildirib.

O, tərəfdarlarını "Millət İttifaqı"nın namizədinə səs verməyə çağırıb.

Xatırladaq ki, mayın 14-də baş tutan seçkilərdə prezidentliyə namizədlərdən heç biri 50%-dən çox səs toplamadığı üçün səsvermənin ikinci turu mayın 28-də keçiriləcək. Bu mərhələdə "Cümhur İttifaqı"nın prezidentliyə namizədi, hakim Ədalət və İnkişaf Partiyasının sədri və hazırkı dövlət başçısı Rəcəb Tayyib Ərdoğan və "Millət İttifaqı"nın namizədi, müxalif Cümhuriyyət Xalq Partiyasının



sədri Kamal Kılıçdaroğlu mübarizə aparacaq. İkinci turda ən çox səstoplayan namizəd növbəti 5 il üçün Türkiyə Prezidenti seçiləcək.

Qeyd edək ki, ilk turda Türkiyənin hazırkı Prezidenti Rəcəb Tayyib Ərdoğan 49,51 faiz, müxalifət lideri isə 44,88 faiz səs toplayıb.

"Ata İttifaqı" siyasi blokunun namizədi Sinan Oğan 5,17% səs yığıb.

S.Oğan ikinci turda R.T.Ərdoğanı dəstəkləyəcək.

# TÜRKİYƏNİN PREZİDENTİ KİM OLACAQ?

**1) ƏRDOĞANIN İKİNCİ TUR STRATEGİYASI**

*- Ərdoğan qalib gəlməsə də, ikinci tura səs çoxluğu və psixoloji üstünlük qazanaraq gedir;*

*- Ərdoğanın partiyasının Parlament seçkisini qazanması da onun imkanlarını artırır;*

*- Ərdoğan onun üçün ən təhlükəli məqamı göstərir , tərəfdarlarını xəbərdar, səfərbər edir, arxayınlaşmaq olmaz deyir, öndə olsaq da, yarış bitmədi;*

*- Kılıçdaroğlunu hədəfə yerləşdirsə də, barış dilini seçir: Mən qalib gələcəyəm, kimsə də məğlub olmayacaq, hamının başqanı olacağam;*

*- Ərdoğan şərt cümlələri ilə deyil, qətiliklə bildirən cümlələrlə danışır, şübhəyə yer qoymur, seçilsəm demir, seçiləcəyəm deyir;*

*- Xalqı ittiham etmir, onun qərarı başım üstədir deyir;*

*- İqtisadi məsələləri- bu, onun ən zəif yeridir,insan haqlarını, azadlığı, ədaləti deyil, güvənliyi, sabitliyi önə çıxarır;*

*- HÜDAPAR ilə əməkdaşlığı arxa plana keçirir ki, daha çox milliyyətçinin səsini ala bilsin;*

*- Kılıçdaroğlu PKK, FETO ilə əməkdaşlıq edir tezisini güclü biçimdə vurğulayır;*

*- Dövlətin səkkiz başı olmaz deyir, Mən getsəm, xaos olacaq ölçüsünü qoyur, əlinizdəkini qoruyun mesajı verir;*

*- Zəlzələ nəticəsində ciddi sıxıntıları olan insanların ehtiyaclarını təmin edəcəyini söyləyir, Ərdoğan onların yanına gedəcək, açılış və təməlqoyma mərasimlərində iştirak edəcək, edərsə, Ərdoğan edər mesajı verəcək;*

*- Bir sıra müxalifət təmsilçiləri onlara səs vermədiyinə görə zəlzələ bölgəsinin insanlarını təhqir etdilər, Ərdoğan bu halı müxalifəti tanıtma fürsətinə çevirdi;*

*- Ərdoğan Türkiyənin hərbi sənayesinin gücünü əyani olaraq göstərəcək;*

*- Böyük mitinqlərə deyil, üzbəüz təmaslara üstünlük verəcək, televiziyanın, sosial şəbəkələrin imkanlarından istifadə edəcək;*

*- MHP-nin həssaslığını nəzərə alaraq Sinan Oğana özəl maraq göstərməyəcək, onun şərtlərini ağırlaşdırmasına imkan verməyəcək, Ərdoğan bilir ki, Sinan Oğana verilən səslərin hamısı onun deyil, Sinan bəyin onların iradəsinə hökm etmək imkanı yoxdur;*

*- Ərdoğan seçim şüarını dəyişdi, öncə doğru zamanda doğru adam deyirdi, indi doğru adamla yola davam deyir, güclü şüar olmasa da, içində dəstək istəyi, ümid daşıyır;*

*- Ərdoğan "dış güclər" güclü Türkiyə istəmir, hamısı mənə qarşıdır tezisini vurğulamağa davam edəcək;*

*- Ərdoğan Kamal bəyin tərəfdarları arasında didişmə var tezisini önə çıxaracaq;*

*- PKK təhrik olunacaq ki, o, Kamal bəyi dəstəkləsin, hər dəstək sözü Ərdoğanın xeyrinə işləyəcək;*

*- Əməli addımlarla terrorun kökünü kəsəcəyik mesajı veriləcək;*

*-Türkiyəni bölgənin güclü dövlətinə çevirən xarici siyasət doğrudur tezisi ayrıca vurğulanacaq;*

*-Ərdoğan gördüyü, görəcəyi işləri sayacaq, ümid, görən verəcək;*

*- Tək Vətən, tək Bayraq, tək Dövlət, tək Millət şüarı Ərdoğanın dilindən düşməyəcək;*

**2) KAMAL KILIÇDAROĞLUNUN İKİNCİ TUR STRATEGİYASI**



*- Kamal bəy, tərəfdarları ikinci tur olacağına inanmırdılar, Kamal bəyi ön üçüncü Cumhur Başqanı kimi tanıdırdılar, nəticələr açıqlananda çöküş yaşadılar;*

*- Kamal bəy, tərəfdarları seçkinin nəticələrinin bəlli olacağı gecə işləri doğru idarə etməyi bacarmadılar, əsası olmayan ümidlər verdilər, bu da güvənsizliyə, ruh düşkünlüyünə yol açdı- anket şirkətlərinin çoxunun nəticələrinin saxta olduğu ortaya çıxdı;*

*- Kamal bəyin, komandasının özünə gəlməsi üç gün çəkdi, çox dəyərli olan vaxt itirildi;*

*- Kamal bəyin tərəfdarlarını toplamaq, hədəfə yönəltmək, qələbəyə inandırmaq sıxıntısı var, seçicilər seçkiyə gəlməsələr, ümidləri doğrultmadığı üçün Kamal bəydən qisas almaq fikrinə düşsələr, iş çətin olacaq;*

*- Kamal bəy üslubunu sərtləşdirdi, Ərdoğanı hədələməyə başladı, əlini masaya vurdu, qətiyyətliyəm, qələbəyə inanıram mesajı verdi;*

*- O, milliyyətçilik bayrağı qaldırdı;*

*- Kamal bəyin ən ciddi sıxıntısı budur: milliyyətçilərin səsini almalı, HDP-nin dəstəyini də itirməməlidir;*

*- Kamal bəy Sinan Oğan uğrunda mücadiləyə girişdi, Sinan Oğan onun yanında olsa, bu, mən milliyyətçiyəm tezisini gücləndirəcək, ancaq HDP-nin səslərini itirmək təhlükəsini də ortaya çıxaracaq;*

*- Kamal bəyə təklif olunur ki, Maral xanımdan başqa bütün yardımçılardan imtina et, bu, sənə milliyyətçi görünmək imkanı verəcək, həm də Ərdoğanın dövlətin səkkiz başı olmaz tezisinin təsirini azaldacaq – o, bu təklifi qəbul etməz, onun yerinə qətiyyətli lider obrazı formalaşdırar;*

*- Kamal bəy terrora qarşı olduğunu daha tez-tez söyləməyə başladı, deyir ki, terroru lənətləyirəm, kimsə Türkiyəni bölə bilməz, ancaq yenə PKK terror təşkilatıdır deyə bilmir, HDP-nin səsini itirəcəyindən qorxur;*

*- Deyir ki, Ərdoğanın da keçmişdə HDP ilə iş birliyi var, bu gün də HÜDAPAR ilə əməkdaşlıq edir – Kamal bəy bu yolla milliyətçiləri yanına çəkməyə çalışır;*

*- Kamal bəy xalqın iqtisadi çətinliklərini güclü biçimdə dilə gətirir;*

*- Türkiyəni ciddi narahat edən qaçqınları vətənlərinə qaytaracağını vurğulayır- bu məsələdə Ərdoğanı ittiham edir;*

*- Mansur Yavaş vasitəsi ilə milliyyətçi qanada – o, PKK terror təşkilatıdır deyir, Əkrəm İmamoğlu vasitəsi ilə də liberallara, o sıradan kürdlərə mesaj verir- Əkrəm bəyin başqan seçilməsində kürdlərin böyük rolu var;*

*- Kamal bəy birinci turda ələvi olduğunu söylədi, bu anlayış ələviləri ona yaxınlaşdırdı, ancaq sünniləri də uzaqlaşdırdı, indi birləşdirici söz olan müsəlmanam deyir;*

*- Kamal bəy, tərəfdarları böyük mitinqlərə deyil, birbaşa təmaslara üstünlük verməyə başladılar, insanlarla söhbət edir, çayını içir, dərdlərini dinləyir, yanındadayıq mesajı verirlər;*

*- Kamal bəy böyük, inandırıcı olmayan vədlər vermir, xalqı ən çox narahat edən məsələləri önə çıxarır, deyir ki, Ərdoğan getməsə, heç bir iş düzəlməyəcək;*

*- Kamal bəy bu məsələləri həll etməlidir: tərəfdarlarını səfərbər etməli, sandığa göndərməli, qələbəyə inandırmalı, milliyyətçilərin səsini almalı, kürdlərin dəstəyini itirməməli, azadlıq, ədalət tələbi ilə güvənli, sabitlik arasında tarazlıq qurmalıdır;*

**3) SİNAN OĞANA VERİLƏN SƏSLƏR NECƏ BÖLÜNƏCƏK?**

**Sinan Oğan 5,17 faiz səs qazandı. Bu milliyyətçi seçicinin iki liderə mesajı var, biri Ərdoğan, o birisi Kamal bəydir;**

*- Ərdoğana deyir ki, xalq sizə istədiyiniz bütün səlahiyyətləri verdi, niyə sıxıntılar içində yaşayırıq?;*

*- Kamal bəyə deyir ki, türk əsgərini, xalqını öldürən PKK terror təşkilatının dəstəklədiyi partiya ilə hansı haqla əməkdaşlıq edirsən?;*

*- Bu milliyyətçi seçicilər 2-ci turda bölünəcək, bir hissəsi qəzəbli olduğu Kamal bəyə deyil, incidiyi Ərdoğana səs verəcək, Məhərrəm İncənin səslərinin bir hissəsi Kamal bəyə gedəcək, önəmli bir qrup seçici də seçkidə iştirak etməyəcək;*

**P.S: TÜRKİYƏ KİMİ SEÇSƏ, ALLAH XEYİR VERSİN!**

**Bir siyasi liderin tərəfdarının o biri liderə səs verənləri təhqir etməsi təkəbbürün, narsizmin göstəricisidir, təkəbbür insanı kiçildər, nifrəti çoxaldar, cəmiyyəti bölər, düşmənliyi artırar;**

**Seçkilər, liderlər gələcək, gedəcəklər, biz isə bir yerdə barış içində yaşamalıyıq;**

**Hər seçici, hər səs dəyərlidir, xalqın seçdiyinə Allah xeyir versin anlayışı barışın yolunu açar;**

**Liderinizə bağlı olun, ancaq əsla bağımlı, kölə, əsir olmayın;**

**Türkiyə kimi seçsə, Allah xeyir versin!**



**Siraceddin Haci**

# Ağdərədə atışma: Xocalıya avtobusla kimlər gətirildi?

**Bu günlərdə rus sülhməramlılarının müşayiəti ilə Xankəndiyə hərbi kalonların keçidi ilə bağlı yayılan video görüntülər heç kəsi çaşdırmasın. Çünki bu sadəcə olaraq separatçıların olduğu yerlərdən sülhməramlıların köməyi ilə edilən yerdəyişmə idi. Onlar Azərbaycanın strateji yüksəkliklərinə yaxın olan yerlərdə öz mövqelərini dəyişirlər. Sözsüz ki, bu, separatçıların qunsuz hərəkətləridir. Amma bu o demək deyil ki, separatçılar üçün kənardan silah-sursat daşınır. Artıq bu mümkün deyil.**

Bunu hərbi ekspert, polkovnik Üzeyir Cəfərov deyib. Polkovnik hesab edir ki, Azərbaycanın Laçın yolunun girişində qurduğu sərhəd-buraxılış məntəqəsindən nəsə keçirmək absurddur: *"Artıq bir aydır ki, bu keçiddən bir güllə belə keçirmək mümkün deyil. Separatçılar və sülhməramlılar da buna cəhd etmir. Çünki Azərbaycanın bu postunda oradan keçən bütün avtomaşınlara baxış olur. Skayner aparatları və əsgər naryadları ilə bütün yüklər yoxlanılır".*

Hərbi ekspert Xocalıda separatçıların hərbi təlim keçirməsinə də münasibət bildirib: *"Məktəbli avtobusunda Xocalıya hərbçilərin daşınması heç də təsadüfi deyil. Əslində o avtobus rus sülhməramlılarının uşaqlarını məktəbə aparıb-gətirmək üçün istifadə edilməlidir. Amma fakt odur ki, bu avtobus separatçıların daşınması üçün istifadə edilir. Eyni zaman dünən axşam saatlarında rus sülhməramlıları bir məlumat yaymışdılar ki, guya Ağdərə istiqamətində atəşkəs rejimi bir dəfə pozulub. Bu gülünc açıqlama idi. Çünki əgər atəşkəs olsa idi, bu tərəflərdən birinin bir dəfə atəş açması ilə baş verməzdi. Fakt odur ki, rus sülhməramlılar bu vaxta qədər atəşkəsin olması ilə bağlı məlumatlar yayır. Bu, sülhməramlılar üçün sadəcə olaraq hesabat xarakterli bir absurd informasiya və yalan təbliğat üçün edilən cəhdlərdir".*

Üzeyir Cəfərova görə, bu cür təbliğatla prosesi uzatmaq əhəmiyyətsizdir: *"Azərbaycan oradakı prosesləri diqqətlə izləyir. Qarşıdakı müddətdə burada antiterror əməliyyatları ilə vəziyyətə tam nəzarət ediləcək. Separatçılar indiki halda silah-sursatın yerini ona görə dəyişir ki, Azərbaycanın bu addımı atacağını bilir. Amma bunlar faydasızdır".*




**Tapdıq Qurbanlı**



# "Erməni revanşizmi kənardan qızışdırılır"

## Qazaxıstanlı professordan açıqlama

**Fransanın Ermənistan ilə hərbi əməkdaşlığı sıxlaşmaqdadır. Parisin İrəvandakı səfirliyinə yeni hərbi attaşe təyin etməsinin ardınca ermənilərə fransız uçuş aparatlarının veriləcəyi haqda məlumatlar da peyda oldu. Təbii ki, kadr təyinatları hər bir dövlətin daxili işidir, lakin Ermənistanın Fransa kimi böyük Avropa ölkəsi və NATO üzvü ilə hərbi-siyasi əməkdaşlığı Azərbaycanı ciddi düşünməyə vadar edir.**

Qazaxıstan MUIT ASC Media Kommunikasiyası və Tarixi kafedrasının professoru Saken Mukan bildirib ki, hazırda geosiyasi arenada yaranmış vəziyyətlə bağlı rəsmi İrəvan getdikcə daha çox "Rusiyadankənar dəstəyə" əl atır və dəfələrlə bəyan edib ki, KTMT üzvləri arasında hərbi-siyasi həmrəylik yoxdur. Ermənistanla Fransa arasında ənənəvi isti münasibətlər İrəvana indiki məqamdan istifadə etməyə imkanı verir, xüsusən də rəsmi Paris bu gün Rusiyanın mövqelərinin Ermənistanın milli maraqlarına kifayət qədər aydın şəkildə cavab verməddiyi məqamdan istifadə etməyə meyllidir.

Ekspert xatırladıb ki, Azərbaycan Fransanın və erməni lobbisinin guya Qarabağda sülhün bərpası və bütövlükdə Cənubi Qafqazda uzunmüddətli inteqrasiya prosesləri ilə bağlı təxribat xarakterli əməlləri ilə bağlı açıq narazılığını dəfələrlə ifadə edib.

*"Mən düşünmürəm ki, rəsmi Bakı vəziyyəti sadəcə müşahidə edərək, əllərini yanına salıb sakit oturacaq. O lazım olan bütün siyasi və diplomatik tədbirləri görərək, mövqelərini gücləndirəcək. Ümumiyyətlə, İrəvanın revanşist əhval-ruhiyyəsi mütəmadi olaraq kənardan qızışdırılır, ancaq informasiya hücumu istisna olmaqla uğursuz başa çatır. Rusiya rəsmilərinin reaksiyası, şübhəsiz, Fransanın xeyrinə olmayacaq və yaxın gələcəkdə Rusiya Federasiyası ilə Ermənistan arasında müttəfiqliyə əsaslanan hərbi-strateji əməkdaşlıq şübhə altına düşə bilər",-* Saken Mukan əlavə edib.

**Tariyel Həsənov**

# Dmitri Solonnikov: "Ermənistan revanşa cəhd etsə, Rusiya onun yanında olmayacaq"

*"Azərbaycanla Ermənistan arasında danışıqlar prosesinin intensivləşdiyini görürük. ABŞ, Avropa İttifaqı və Rusiya ilə danışıqlar aparılıb. Bu cür intensivləşmə sülh müqaviləsinin imzalanmasını təşviq edir, ancaq bəzi məqamlar, mürəkkəb məsələlər hələ də müzakirə olunur. Ermənistan Qarabağın erməni icmasını Azərbaycandakı digər milli azlıqlardan bir qədər fərqli statusda görmək istəyir".*

Bunu açıqlamasında rusiyalı politoloq Dmitri Solonnikov deyib. Onun sözlərinə görə, Ermənistan həm də xarici tərəfdaşları ilə birlikdə Qarabağ ermənilərinin Azərbaycana inteqrasiyasında qarant olmaq istəyir. İrəvanın bu qəribə formulu Azərbaycan tərəfi narazı salır. Ermənistan danışıqlarda öz mövqeyini gücləndirmək üçün Avropa ölkələrini prosesə cəlb edir, informasiya fonu yaratmaq məqsədilə Azərbaycanla sərhəddə təxribatlar törədir ki, avropalı dostları Bakıya təzyiq göstərsinlər.




Solonnikov qeyd edib ki, Ermənistanın danışıqlar prosesini sabotaj etmək cəhdləri daha çox kənar sponsorlar tapmaq üçündür. Fransa da potensial sponsor kimi fəallıq edir: *"Paris fransız Afrikasında uduzdu, oradan getməsi tələb olundu. Fransa Polineziyasında keçirilən seçkilərdə qalib gələn Müstəqillik Partiyası referendum keçirmək və Parisin nəzarətindən çıxmaq məsələsini gündəmə gətirir. Bu səbəbdən Fransa xarici siyasətdəki itkilərini kompensasiya etmək üçün alternativ axtarır və burada biz Parisin heç vaxt ciddi maraqlarının olmadığı Cənubi Qafqaza daxil olmaq cəhdlərini müşahidə edirik. Bu, Fransanın Rusiyanı sıxışdırmaqla burada nəyisə həll edə biləcəyini göstərmək cəhdidir".*

Ekspertin fikrincə, Ermənistana Fransa silahlarının veriləcəyindən danışmaq hələ tezdir. Fransa iqtisadiyyatında işlər o qədər də yaxşı getmir. *"Əlbəttə, daha Afrika və Asiyada populyar olmayan silahlarının Ermənistanın hesabına silinməsi Parisə sərf edir. Bunlar heç kimə lazım olmayan, demək olar, pulsuz verilən silahlardırsa, Ermənistan bu hədiyyəni qəbul edə bilər. Bundan sonra erməni hərbçilərinin NATO standartlarına uyğun yenidən hazırlanması məsələsi gəlir. Belədirsə, bu, Ermənistan üçün KTMT-dən, Rusiya ilə müttəfiqlik münasibətlərindən çıxış yoludur. Amma eyni zamanda İrəvanı çox çətin vəziyyətə salır. Əgər erməni revanşistləri yeni qarşıdurma yaratmağa çalışsalar, necə olacaq? Keçən dəfə Ermənistanı tam məğlubiyyətdən Rusiyanın müdaxiləsi xilas etdi. Əgər revanş cəhdi olarsa, Rusiya artıq Ermənistanın müttəfiqi olmayacaq. Bu, Ermənistanın tam məğlubiyyəti deməkdir. Bu baxımdan fransız silahları heç bir işə yaramayacaq",-* Solonnikov deyib.

*O bildirib ki, Fransa silahlarının tədarükü ilə bağlı danışıqları Ermənistanın suveren hüququ sayır. Bu cür danışıqlarda heç bir strateji xətt yoxdur, ona görə də, Rusiya üçün prinsipial məsələ deyil. Ancaq Ermənistan getdikcə daha dərin siyasi nəticələrə aparan gedişlər edərək, Rusiya ilə inteqrasiya proseslərindən çıxsa, onda Ermənistanın iqtisadiyyatına və siyasi çəkisinə ciddi zərbə dəyəcək. Ermənistan Rusiyadan silahları əsasən kredit hesabına alır. Fransa çətin ki, Ermənistana silah almaq üçün eyni güzəştli şərtlər təqdim etsin. Əgər revanşistlər qalib gəlsə, o zaman uduzan erməni xalqı olacaq", -* politoloq fikrini yekunlaşdırıb.

**Tariyel Həsənov**

# Azərbaycan Türkiyədəki seçkilərə niyə müdaxilə edir?

**Azərbaycanın son 30 illik müstəqillik dönəmində Türkiyədə çox sayda prezident və parlament seçkiləri olub. Bu seçkilərə münasibət və maraq isə Amerikada və ya Rusiyada keçirilən seçkilərdən qat- qat aşağı olub.İndiki dönəmdə isə bu seçkiləri Azərbaycan əhalisinin bütün təbəqələri izləyir. Bunu ilk baxışda əslində alqışlamaq olardı. Çünki, Azərbaycan cəmiyyətinin Türkiyəni tanıması baxımından və Türkiyədəki seçkilərin Azərbaycanda da azad seçkilərə yol açması və yönətimin seçki ilə dəyişməsi praktikası baxımından faydalı olardı. Lakin biz nə izləyirik?**

Seçki kampaniyası başladığı dövrdən, müxtəlif yazılarla, TV və İnternet kanalları vasitəsilə Azərbaycanda hər məsələnin uzmanı olan saysız hesabsız siyasi "liderlər", jurnalistlər, siyasi şərhçilər və eynilə hakimiyyət və qeyri hakimiyyət yönümlü mətbuat, bir sözlə, cəmiyyətdə üzdə olmağa çalışan qüvvələrin hamısı vahid cəbhə ilə Türkiyədəki mövcud rejimin müdafiəsinə qalxaraq ölkədə təməl haq və azadlıqları, şəffaflığı, Atatürk ilkələrini və ölkənin fundamental maraqlarını ifadə edən qüvvələrə qarşı yalan və iftira kampaniyasına başlamışlar. Əgər məqsəd bu seçkiləri analiz etmək, dəyərləndirmək və hansı qüvvələrin daha başarılı olacağını mülahizə etmək məqsədilə aparılan debatlar olsaydı, onu da ikiəlli alqışlamaq olardı. Ancaq ortadakı tablo, yəni Millət İttifaqı və onun Presidentliyə namizədi K.Kılıcdaroğluya qarşı aparılan çirkin kampaniya, Qarabağdakı və Ermənistandakı anti-Azərbaycan düşmən qüvvələrə qarşı aparılan mübarizədən heç nə ilə fərqlənmir və əksinə, daha geniş vüsət alaraq, təbliğat altında qalan əhalinin əksəriyyətini də əhatə edən mövzuya çevrilmişdir. Vahim bir səhnə ilə üzləşmişik. Özünü qardaş sayan bir ölkənin mətbuat və TV kanalları qardaş ölkənin birliyini və bütövlüyünü pozmağa yönəlmiş, Türk millətinin qəbul etmədiyi irqçı, fasist ifadələrlə, kimliyini və şəxsini linç edən ibarələrlə on milyonlarla insanın daşıdığı dəyərləri ifadə edən K. Kılıcdaroğluya qarşı ağlasığmaz kampaniyaya girmişlər. Bu çıxışları edən şəxslər bunun məsuliyyətini dərk edirlərmi? Bu cür adamlara çanlı efir verən TV kanalları və mətbuat orqanları bu çıxışlara görə məsuliyyət daşımırlarmı? Bu bir çinayətdir və Türkiyəyə qarşı və Türk millətinə qarşı yönəlmiş cinayətdir. On milyonlarla insanın heysiyyatına və şərəfinə toxunan iftira kampaniyasıdır.

Nə baş verir və niyə ümumilikdə seçkilərə maraq göstərilməyən Azərbaycanda Atatürkün mirası olan CHP-nin Presidentliyə namizədi Kamal Kılıçdaroğluya qarşı aparılan bu kampaniya hardan qaynaqlanır?. Əsində, sağlam məntiq Azərbaycan cəmiyyətinin dünyəvi Atatürk partiyasını dəstəklədiyini deyərdi. Lakin, görünən odur ki, bütün bu kampaniyalar Azərbaycandakı mövcud hakimiyyətin xeyir duasının olduğu mühitdə baş verir. Olmasaydı,mətbuatda hər bir məsələyə müdaxilə edən hakimiyyət ən azı qəzetlərdə gedən təhqiredici yazılara izn verməzdi.

Hakimiyyətin bu yollarla Türkiyədəki mövcud rejimin seçki gedişinə dəstək verməsi isə bilavasitə Azərbaycanı çətin duruma salan qəbuledilməz haldır və iki dövlət arasında inamsızlığa aparan gedişdir. Eyni səhvi Erdoğan Misirlə bağlı etdi. Misir president Mursi devrildi və yeni President seçildi, amma Erdoğanın dini təməllərə söykənən Morsi-SİSİ kampaniyası Türkiyəni yaxın şərqdə və Aralıq dənizində indiki duruma saldı və Türkiyənin bölgədə izolyasiyasına və Yunanıstanın güclənməsinə gətirdi. Yaxşı,əgər Kilicdarogli sabah xalq tərəfindən seçildi, o zaman Azərbaycan hökuməti hansı durumda qalacaq, nə edəcək? Bu haqda düşünürlərmi? Seçkilərin nəticəsindən asılı olmayaraq, artıq məlumdur ki, bu cür yanaşma Azərbaycana ancaq zərər gətirəcək və qardaşlıq münasibətlərinə ləkə salacaqdır. Azərbaycanın bu cür hərəkəti Erdoğan hökümətinə qarşı dirənən əhalinin ən azı 50 faizinin etirazına və Azərbaycana qarşı soyuq münasibətə səbəb olacaqdır. Bu cür kampaniya heç AK partinin şərəfli üzvlərinin də xoşuna getmeyecekdir. Çünki bu açıq aşkar daxili işlərə qarışmaq, ölkənin birliyinə və bütövlüyünə qarşı yönəlmiş hərəkətlərdi. Azərbaycanın Türkiyədəki movcud rejimə dəstəyinin Türk millətinin seçiminə heç bir təsiri yoxdur, əksinə bu kampaniya Azərbaycanın uzun müddətli maraqlarına zərbə vuracaq.

Azərbaycandakı kampaniyadan Türkiyədə hər kəsin xəbəri vardır. AK partinin umuruna deyil, çünki onların düşüncəsi və metodları Türkiyədə hamıya məlumdur. Bu yazının məqsədi onları açıqlamaq deyil. CHP və Millət ittifaqı isə bütün bunları bilərək böyüklük göstərir, hələ ki, reaksiya göstərmir,amma təbii ki seçkilərdən sonra seçilib seçilməyindən asılı olmayaraq, bu cür yanaşmanın Türkiyə-Azərbaycan münasibətlərinin sarsılmasına xidmət etdiyini açıq – şəkildə Azərbaycana bildirəcəklər. Azərbaycan cəmiyyəti bilməlidir ki, Türk dövləti təksə mövcud iqtidardan ibarət deyil, Türk dövləti Azərbaycandan fərqli olaraq, iqtidarlı-müxalifətli olaraq dövlət sayılır və ana müxalifət lideri Türkiyə qanunlarına görə dövlətin Prezidenti və Millət Məclisinin sədri yanında oturan üçüncü şəxs olur. Ana müxalifət liderini axmaq, xəyanatgar, satqın, PKK-çı, erməni,Azərbaycan düşməni adlandırmaq Türk dövlətini aşağılamaqdır. Bu cür ifadələri Türkiyədəki hüquq sistemi və Kılıcdaroğlunun Erdoğan daxil heç bir rəqibi də qəbul etməz. Bunlar Azərbaycan üçün utancverici ifadələrdir. Və məsuliyətsizliyin və başıpozuqluğun ifadəsidir.



Xalq arasında belə primitiv təbliğat aparılır ki," Erdoğan gedərsə Azərbaycan batar", "Azərbaycan tək qalar". "Ermənilər gəlib torpaqları yenidən işğal edər"... Erdoğanın 44 günlük müharibə dövründə rolu önə çəkilir. Heç kim müharibə zamanı Erdoğanın göstərdiyi qətiyyəti və cəsur addımları qulaqardına vurmur və unutmur. Ancaq bu cür təbliğatın Azərbaycan dövlətinə və onun ordusuna olan inamı azaltmağa yönəldiyini və xalqı ümidsizliyə sürüklədiyini bu təbliğatı aparanlar dərk edirlərmi?

Türkiyənin 78 illik seçimlə dəyişən yönətim sistemi vardır. Seçimin nəticələrini də daxili siyasət müəyyən edir. Seçimlərdə isə müasir dünyanın qaydası ilə siyasi partiyalar yarışır. Azərbaycan cəmiyyətində isə yarışa girən əsas rəqibə qarşı anti-erməni propogandası aparılır. Yoxsa Azərbaycan başbilənlərinə görə Türkiyə siyasi sistemini dəyişməlidir? Qurtuluş savaşının qəhrəmanı İsmət İnönü də 11 il iqtidardan sonra seçimlə dəyişdi. Demokratik seçkiləri də özü təşkil etdi. O İstiqlal savaşı Qəhrəmanı idi.

Türkiyədəki indiki yönətim 21 ildir hökm sürür. Dünya təcrübəsinə baxsaq, 21 illik hakimiyyət heç də yenilik və inkişaf gətirməz. O artıq inkişafa manеə olar və keçmişlə öyünər. Bunu tarixin gedişi sübut etmişdir. Türkiyənin həm iqtisadi və həm də beynəlxalq sahədə düşdüyü vəziyyət, bu vəziyyəti bilənlərə çox yaxşı məlumdur. Son 21 ildə Türkiyə eksperiment səhnəsinə çevrilmişdir. Türk dövlətinin üç əsas dayağı olan ordu, universitetlər və hüquq sistemi yıpradılmış və dövlətin bel sütünları laxlamış hala düşmüşdür. Orduya qarşı kumpas davaları ordunu yaman günə qoymuş,şərəfli generallar həbs edilmiş, Türk Silahları qüvvələri Baş Qərərgah Rəisi terrorçu adı ilə tutuqlanmışdır. Ordunun əksər təsisatları əlindən alınmış, hərbi təhsil sistemi dini təmayüllü siyasi rəhbərliyin arzularına uyğun qurulmuşdur. Universitelər, media və hüquq sistemi təlimatla işləyən strukturlara çevrilmişdir. Dünyəvi məktəblər imam –hatib okullarına çevrilmiş, 5 yaşındakı uşaqların Quran kurslarına göndərilməsi adi hal almışdır. İqtisadi fəlakət göz qabağındadır. Mərkəz Bankasının nağd pul rezervləri hər suala cavab verir. Kənd təsərrüfatı və heyvandarlıq dağıdılmış, ölkənin minlərlə gəncləri, alimləri və həkimləri və iş adamları xarici ölkələrə daşınır. Türkiyə beyin köcünü yaşayan ölkələr arasında öndə gedir. Dini təriqətlər meydan oxuyur. Saymaqla bitmir. Bunu orda yaşayanlar bilir, Antalyaya istirahətə gedənlər yox. Amma bununla bərabər kimin seçilməsini Türk milləti seçimlə bildirəcək.

Türkiyənin Azərbaycanla bağlı siyasəti təkcə soydaş sevgisi ilə deyil, Türkiyənin bölgəsəl maraqları ilə də müəyyən edilir. Türkiyə ilə Azərbaycanın birliyi və müttəfiqliyi iklili münasibətlərin dərinliyindən asılı olacaqdır. Bu ilk növbədə xalqlarımız arasında hədsiz əlaqələrin inkişafından asılı olacaqdır. Hələ ki bu birlikdən danışmaq tezdir,çünki çox sayda problemlər var. Biz hələ AB ölkələri arasındakı münasibətlərin yarısına da çıxmamışıq. İndiki aparılan təbliğat bu münasibətləri daha da geriyə atılmasına xidmət edir.

Türkiyə güclü olursa Azərbaycan da güclü olur. Bizə güclü Türkiyə lazımdır. Azərbaycanın bel bağlamaq istədiyi heç bir şəxsin və ya şəxsiyyətin möcüzəli çubuğu yoxdur.Türk milləti dəyişim istəyirsə, demək köhnə sistemlə yaşaya bilmir. Yeni yönətimin gəlməsi Türkiyəni ancaq gücləndirəcək. Elə, Erdoğan hakimiyyətə gəldiyi ilk 5 ildə də Türkiyə əlbəttə çox gücləndi. Türkiyə-Azərbaycan münasibətləri partiya üstü məsələdir. Bunu həm Erdoğan hököməti və həm də müxalif qüvvələr təsdiq edir. Azərbaycan isə bunu partiya məsələsinə çevirmişdir. Onun nəticələri isə ilk növbədə Azərbaycana zərbə vuracaqdır. Belə gedərsə, Türkiyə hər zaman Azərbaycanın yanında olmaya da bilər.

Yaddaşı zəif olanlar üçün xatırlatmağa dəyər ki, 2009-cu ildə Bursada Türkiyə-Ermənistan futbol matçı zamanı Azərbaycan bayraqları zibil vedrələrinə atılanda və Ermənistanla diplomatik münasibətlər qurmaq üçün protokol imzalayıb hayırlı olsun deyende, onların qarşısını alan indiki çirkin kampaniyaya məruz qalan CHP və onun liderləri idi. CHP,bütün parlamenti və xalqı ayağa qaldırdı və sonra bu işlərə MHP də qoşuldu. AK partinin o zamankı yanaşması o idi ki, "Qarabağ məsələsinin həlli yolu yoxdur, olsaydı bu 15 il ərzində həll olunardı, bu çox karışıq məsələdir. Biz Ermənistanla münasibətlər qurmalıyıq". Həqiqətin iki üzü yoxdur, bir üzü var..

**Elxan Mehdiyev**
**Beynəlxalq məsələlər üzrə siyasi ekspert**

# RUSİYANIN "KİNJAL" BİABIRÇILIĞI...

## Putinin tərifli raketi "metallomluq" oldu

### "Dünyada bu raketləri saxlaya biləcək sistem yoxdur"

**Bunu Vladimir Putin hələ bir neçə il öncə tədbirlərin birində Rusiyanın "Kinjal" raketlərini "vəsf edərkən" söyləmişdi.**

Ancaq Ukrayna müharibəsi Rusiyanın bir çox "əfsanələri" kimi, "Kinjal"-ın da şişirdildiyini üzə çıxardı. Məlum oldu ki, Rusiya ordusu necə "dünyanın ikinci ordusu"dursa, "Kinjal" da o cür "hipersəs" və "vurulması mümkün olmayan" raketdir.

Məlum olduğu kimi, bir neçə gün əvvəl Rusiya Müdafiə Nazirliyi öz "Kinjal" raketlərilə Kiyevin hava məkanını qoruyan "Patriot" sistemini məhv etdiyini bəyan etdi. Ancaq dərhal Ukrayna tərəfi bu xəbəri təkzib etdi. Həmin vaxt istər-istəməz suallar meydana gəldi ki, əgər doğrudan da Kiyevi qoruyan əsas hava Hücumundan Müdafiə Sistemi(HHM) olan "Patriot" məhv edilibsə, nədən dərhal Rusiya raket zərbələrini davam etdirmədi?

Axı, müdafiəsiz qalan Kiyevi, xüsusilə də xeyli vaxtdır Kremlin arzu etdiyi hökumət məhəlləsini bombalamaq üçün bundan gözəl şans ola bilməzdi.Ancaq nədənsə Rusiya bu "fürsətdən" istifadə etmədi. Deməli, "Patriot"-u məhv etdiyinə özü də inanmırdı

Sonradan Amerika mətbuatı "Patriot"-un tərkib hissəsi olan hansısa bir elementin doğrudan da raket hücumundan sonra zədələndiyini xəbər verdi və məlum oldu ki, bu zədə qısa müddətdə aradan qaldırılıb.



Ancaq onu "vuran" birbaşa raket zərbəsi yox, bu sistemin havada məhv etdiyi hansısa raketin yerə düşən qalıqları olub. Hətta bu raket qalıqlarının məhz "Kinjal"-a aid olduğu da sual altındadır.

Digər yandan, mütəxəssislərin də bildirdiyi kimi, "Patriot" hansısa artilleriya qurğusu kimi bir hissədən yox, bir-birindən bəzən 50 kilometrədək məsafədə yerləşən bir neçə hissədən ibarətdir. Buraya müxtəlif radarlar, digər cihazlar, idarəetmə məntəqəsi, raketlər və s. daxildir. Onlar bir növ müəyyən ərazidə onlarla kilometr məsafədə səpələniblər və vəziyyətdən asılı olaraq yerləri tez-tez dəyişdirilir. Yəni, bu sistemi bir raket zərbəsilə məhv etmək mümkün deyil. Buna baxmayaraq, Ruisya guya "Patriot" sistemini məhv etdiyini bəyan edir və növbəti dəfə biabırçı duruma düşür. Özü də bilə-bilə ki, bu cür bəyanatlarla yalnız öz daxili auditoriyasına aid savadsız "obıvatel"-i aldada bilər. Yəqin, elə məqsəd də bu imiş...

Bundan sonra Rusiyanın öz daxilində də Kremlin "Kinjal"-ın hipersəs raket olması və guya "Patriot"-u məhv etməsilə bağlı iddialarıyla ziddiyyət təşkil edən hadisələr baş verdi. Belə ki, bu günlərdə Rusiya Elmlər Akademiyasının Sibir bölməsinin Nəzəri və Tətbiqi Mexanika İnstitutunun alimləri - Anatoli Maslov, Aleksandr Şiplyuk və Valeri Zvyaqintsevin vətənə xəyanətdə ittiham olunaraq həbs edildikləri məlum oldu.

Bunlar hipersəs raket texnologiyası üzərində işləyən üç rusiyalı alimdir. Yəni, "Kinjal"-ın yaradıcılarıdır. Rusiyanın özündə də hamı yaxşı başa düşür ki, bu alimlərin vətənə xəyanətdə ittiham edilməsi heç də hansısa xarici dövlətin kəşfiyyatına işləmələrilə bağlı deyil.



Söhbət onların icad etdikləri raketin bəyan edilən xarakteristikalara malik olmamasının, yəni hipersəs olmadığının və beləliklə də Putini aldatdıqlarının üzə çıxmasıdır. Fakt odur ki, Ukraynadakı HHM sistemləri 96 milyon dollar qiyməti olan bu raketləri bir-bir "dənləyir". Artıq Rusiya və Qərb mətbuatında da sözügedən alimlərin məhz buna görə həbs edildiyi bildirilir.




Ziddiyyət isə ondan ibarətdir ki, əgər doğrudan da "Kinjal" hipersəs raketdirsə, onu vurmaq mümkün deyilsə, "Patriot"-u məhv edibsə və Ukrayna onu vura bilmirsə, nədən bu raketi yaradan alimlər həbs olundu? Yəqin, Rusiyada bu sualı özünə və Rusiya rəhbərliyinə verənlər az deyil. Axı, əgər hər şey Rusiya Müdafiə Nazirliyinin sözçüsü, general Konoşenkovun dediyi kimidirsə, bu alimlərə həbs yox, mükafat düşürdü...

Əslində, bu mövzunu aktuallaşdıran və alimlərin həbsinə əmr verən Putini hiddətləndirən əsas məsələ "Kinjal"-ın vurulması ilə Rusiyanın öz nüvə silahından istifadə potensialının da sual altına alınmasıdır. Çünki əgər "Patriot"-un heç də ən son modifikasiyası olmayan variantı Rusiyanın ən müasir, sürətli, "hipersəs" "Kinjal"-ını asanlıqla bir-bir "dənləyirsə", Kremlin "Kinjal"-dan daha az sürətli nüvə başlıqlı ballistik raketlərinin vurulmayacağına kim zəmanət verə bilər? Kim zəmanət verə bilər ki, NATO-nun və ABŞ-ın ən müasir HHM sistemləri üçün hətta Rusiyanın gecə-gündüz hədə-qorxu gəldiyi strateji nüvə başlıqlı raketləri asan vurulan hədəf olacaq? Əgər Rusiyanın ən yeni raketi "feyk" çıxırsa, onun onillərlə anbarlarda yatmış nüvə silahının özü nə vəziyyətdədir?

Bütün bunlar o deməkdir ki, "Kinjal"-ın "lax yumurta" çıxması Rusiyanın strateji hərbi gücü barədə təsəvvürlərə də sarsıdıcı zərbə vurur.

Xatırladaq ki, tanınmış azərbaycanlı hərbi ekspert Aqil Rüstəmzadə Ukrayna kanallarının birinə müsahibəsində hələ "Kinjal"-ın tətbiqindən xeyli əvvəl bu raketin imkanlarının şişirdildiyini, onun adi "İskəndər" raketinin təyyarəyə quraşdırılan variantı olduğunu demişdi.

"Kinjal"a ən "dolğun" qiyməti isə Ukrayna Prezident Ofisinin sabiq müşaviri və tanınmış ekspert Aleksey Arestoviç verib. O, deyib ki, adi avtomat ötürücülər qutusu olan avtomobil istehsal edə bilməyən bir ölkənin hansısa hipersəs raket, yaxud digər "möcüzəli silah" istehsal etdiyinə inanmağın özü axmaqlıqdır...



**Cəlal Məmmədov**

# BƏQƏRƏ SURƏSİNİN MESAJLARI

**41-ci YAZI**

*(əvvəli ötən sayımızda)*

### OTUZ SƏKKİZİNCİ AYƏNİN ANLAMI

*“Əmr etdik: Oradan hamınız birlikdə çıxıb enin! Ancaq Məndən bir rəhbərliyin sizə çatması şərtdir. Hər kim (ona çatan) rəhbərliyimə tabe olarsa (uyarsa), artıq onlar üçün gələcək qorxusu yoxdur, keçmişdən dolayı da kədərlənməyəcəklər”*

**1) “Əmr etdik: Oradan hamınız birlikdə çıxıb enin!”**

Ayədəki *“oradan”* sözü cənnəti, yəni yer üzündəki gözəl bağçanı nəzərdə tutur. *“Hamınız birlikdə”* ifadəsi hz.Adəmi, Havvanı, Şeytanı əhatə edir. Allah *“enin”* əmrinə ikinci kərə yer verir. Otuz altıncı ayədə buyurmuşdu: *“... Bir-birinizə düşmən olaraq enin...”. “Enin”* əmrinin təkrarı təkid üçündür. Bir sıra alimlər *“enin”* əmrinin iki kərə verilməsini belə izah etmişlər: hzAdəm öncə dünya səmasına, sonra yer üzünə endirilmişdir, yəni iki *“enin”* əmrinin səbəbi budur. Ancaq bu fikrin Qurani-Kərimdə qarşılığı yoxdur.

Hz.Adəmin, Onun soyundan gələn insanların yaradılış məqsədi yer üzünün xəlifəsi olmaqdır. O, yasaq ağacla sınandı, məğlub oldu, tövbəyə yönəldi, bağışlandı, yer üzünün xəlifəsi təyin edildi. Hz.Adəm yer üzünə sürgün edilmədi, yer üzü Onun cəza yeri deyil. Yer üzü hz.Adəm və soyundan gələnlərin xəlifəlik missiyasını yerinə yetirəcəkləri (yer üzünü Allahın ölçüləri ilə idarə edəcəkləri) məkandır, görəv yeridir. İnsanın cənnəti, ya da cəhənnəmi qazanması yer üzündəki xəlifəlik missiyasını necə yerinə yetirməsinə bağlıdır.

**2) “... Ancaq Məndən bir rəhbərliyin sizə çatması şərtdir...”**

Ayədəki rəhbərlikdən (hidayətdən, *“hidayət”* anlayışı ilə bağlı geniş bilgi üçün öncəki kitablarımıza baxa bilərsiniz) (Qurani-Kərimə giriş, s. 76-81) məqsəd vəhydir. Vəhyi təbliğ etmək, insanlara çatdırmaq (doğru yola qovuşmağın şükrü onu təbliğdir) insanın üzərindəki məsuliyyətdir: *“... Bu Quran mənə Onunla sizi və Ona qovuşanları xəbərdar edim deyə vəhy edildi...”* (Ənam, 6/19).

**3) “... Hər kim (ona çatan) rəhbərliyimə tabe olarsa (uyarsa), artıq onlar üçün gələcək qorxusu yoxdur, keçmişdən dolayı da kədərlənməyəcəklər”**

Allahın vəhyinə (Qurani-Kərimə) tabe olmaq (uymaq) bu anlamı daşıyır: ömrünü Allahın ölçülərinə uyğun yaşayacaq, yer üzünün xəlifəsi olmaq missiyanı yerinə yetirəcək, xeyri, bərəkəti, ədaləti, sevgi, barış, mərhəmət və yaxşılığı çoxaldacaq, pisliyin, zülmün qarşısında olacaqsan.

Ayədəki xitab sadəcə hz.Adəmə deyil, bütün insanlaradır. Allah vəhyə tabe olanlara iki nemət vəd edir:

*a) vəhyə tabe olanlara gələcək qorxusu yoxdur. Bu gələcək həm bu dünyaya, həm də axirətə aiddir. Mömin Allahın vəhyinə tabe olub güvəndə yaşayan, güvən verən insandır (iman etmək güvəndə olmaq anlamını daşıyır). Ayə deyir ki, qorxudan qurtuluş bütün varlığı ilə Allaha təslim olmaqla gerçəkləşə bilər. Hidayət üçün rəhbərliyə ehtiyac var, bu rəhbər də Qurani-Kərimdir;*

*b) keçmişdən dolayı da kədərlənməyəcəklər. Möminlər (ilahi rəhbərliyi qəbul edənlər) üçün axirətdə hüzn yoxdur: “... Və deyəcəklər: “Hüznü bizdən yox edən Allaha həmd olsun. Gerçəkdən də, Rəbbimiz tərifi mümkün olmayan bağışlayıcı imiş, Ona edilən şükrə saysız-hesabsız qarşılıq verən imiş. O, lütfü ilə bizi bu (varlığı və gözəlliyi) qalıcı diyara yerləşdirdi. Burada bizə nə yorğunluq, nə bezginlik, nə də bitkinlik var”; (Fatır, 3/34-35)*

Ayənin verdiyi mesaj budur: kim Allahın kitabını rəhbər qəbul edib Ona uyğun yaşayarsa, bu dünya və axirətdə ilahi rizanı qazananlar sırasında yer tutar - zəfər iman edənlərindir.

### OTUZ DOQQUZUNCU AYƏNİN ANLAMI

*“Küfrə saplanıb qalan və ayələrimizi inkar edənlərə gəlincə: bax onlar məhz atəşin yoldaşıdırlar, onlar orada (cəhənnəmdə) əbədi qalacaqlar (qalıcıdırlar)”*

**1) “Küfrə saplanıb qalan və ayələrimizi inkar edənlərə gəlincə ...”**

Qurani-Kərim məsani (ikiyönlü) kitabdır, bir məsələni ziddi ilə izah edir, məsələn, imanı, küfrü, cənnəti, cəhənnəmi, xeyri, şəri, ədaləti, zülmü, dünyanı, axirəti bir arada tanıdır. Öncəki ayədə ilahi rəhbərliyi (vəhyi, hidayəti) qəbul edənlərin aqibəti açıqlandı. Allah onlara iki nemət vəd etdi: onlar üçün gələcək qorxusu yoxdur, keçmişdən dolayı da kədərlənməyəcəklər.



Bu ayədə isə inkarçıların sonu göstərilir. “Küfür” sözü seçilir, bu söz “k-f-r” kökündəndir, Qurani-Kərimdə eyni kökdən olan sözlər beş yüz iyirmi üç kərə işlədilmişdir, bu mənaları var:

*a) “örtmək” (kafir həqiqətin üstünü örtən adamdır): “Kafir olanları qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, inanmazlar”; (Maidə, 5/97)*

*b) “əkinçi” (əkinçi toxumu torpağa atıb üstünü örtdüyü üçün kafirdir): “Elə bir yağmur kimidir ki, bitkiləri əkinçilərin xoşuna gələr”; (Hədid, 57/2)*

*c) “kəfarət” (bir şeyi örtmək, bürümək, üzərini basdırmaqdır, kəfarət bir şeyi yox edər. Allah insanların bir sıra xətalarını kəfarət vasitəsi ilə bağışlayır (örtür). Dinimizdə oruc, zihar, həcc, öldürmə, and içmə kəfarətləri var. Məsələn, bir adam and içsə, andını yerinə yetirməsə, kəfarət ödəyər: on yoxsulu doyurar/geyindirər, ya da bir kölə azad edər, ya da iki-üç gün oruc tutar; (Maidə, 5/89)*

*d) “ətir” / “qoxu”: “Yaxşılar isə kafur qatılmış bir qədəhdən (cənnət şərabı) içərlər”; (İnsan, 76/5)*

Küfrün ən böyüyü Allahın varlıq və birliyini inkar etməkdir. Qısa olaraq onu deyə bilərik ki, Allahın nemətlərini inkar küfürdür, kafir nankor və şükürsüz insandır.

Ayə buyurur ki, küfrə saplananlar (həqiqəti gizləyənlər, bu, səbədir), ayələrimizi inkar edənlər (bu da nəticədir). *“Ayə”* sözü Qurani-Kərimə aid anlayışdır, *“əlif-yə-əlif”* kökündəndir, cəmi *“ayat”*dır, ilahi mətndə eyni kökdən olan sözlər üç yüz səksən iki yerdə işlədilmişdir, bu anlamları var:

*- “vəhyin (Qurani-Kərimin) cümlələri”: “Onlar Allahın ayələridir. Onları sənə bir məqsəd üçün oxuyuruq”; (Ali-İmran, 3/108)*

*- “əlamət”: “Biz gecəni və gündüzü bir ayə olaraq yaratdıq…”; (İsra, 17/12)*

*- “ibrət”: “(Ey Firon!) Səndən sonra gələcəklərə ibrət olması üçün bu gün sənin bədənini qurtaracağıq. İnsanlardan bir çoxu həqiqətən ayələrimizdən qafildir”; (Yunus, 10/92)*

*- “möcüzə”: “(Müşriklər) bir ayə (möcüzə) görsələr, üz çevirərlər, deyərlər ki, bu, günümüzədək gələn sehrdir”; (Qəmər, 54/2)*

*- “simvol”: “Bax Allahın bu dəvəsi sizin üçün bir simvoldur”; (Araf, 7/73)*

*- “ilahi yasa”: “İnsanlara üfüqlərdə və öz nəfslərində ayələrimizi göstərəcəyik ki, Quranın gerçək olduğu onlara yaxşıca bəlli olsun”; (Fussilət, 41/53)*

*- “risalət”: “Onlara bir ayə gəlincə: “Allahın elçilərinə verilənin eynisi bizə də verilmədikcə əsla inanmarıq”, - dedilər. Allah elçiliyini (risalət vəzifəsini) hara qoyacağını (kimə verəcəyini) bilir”; (Ənam, 6/124)*

Toplasaq, deyə bilərik ki, bu dörd şey ayədir: Qurani-Kərimin cümlələri, insan, yaradılan bütün varlıqlar, baş verən bütün hadisələr. Hər ayə bir işarədir, onu yaradanı göstərir.

Küfrə saplananların Allahın ayələrini (mətndəki “ayələr” sözü vəhy mənasında işlədilmişdir) inkarının bu səbəbləri var:

*- cəhalət;*
*- təkəbbür;*
*- qısqanclıq;*
*- siyasi, iqtisadi, sosial çıxar (mənfəət);*

Onlar Allahın ayələrini bu yollarla inkar edirlər:

*- Qurani-Kərimin Allahın kitabı olmadığını söyləyirlər;*
*- adətlərini dinin yerinə qoyurlar;*
*- xurafələri din zənn edirlər;*
*- nəfslərinin istəklərinə tabe olurlar;*
*- təhrif edirlər;*
*- dəyişdirirlər;*
*- doğru anlamırlar;*
*- ayələrin hökmünü yerinə yetirmirlər;*
*- ayələrə əskilərin məsəlləri deyirlər;*
*- Allah Rəsulunu elçi kimi tanımırlar;*
*- ayələrə ideologiyalarına uyğun yanaşırlar;*
*- gizləyirlər;*
*- ələ salırlar;*

**2) “Bax onlar məhz atəşin yoldaşlarıdır, onlar orada (cəhənnəmdə) əbədi qalacaqlar (qalıcıdırlar)”**

Allahın hidayət qanunu var: O, Allaha təslim olanı doğru yola yönəldər. Hidayəti istəyənə, hidayət uğrunda çalışana hidayət qapısını açar. İman et, çalış, imanını yaşa, hidayətə qovuş. Allahın təsadüf adlı qanunu yoxdur. O istədiyinə hidayət, istədiyinə dəlalət verən Allah deyil. Dəyişməz qanunları var (sünnətullah), hər şey Onun qoyduğu qanunlara görə gerçəkləşir (qədər də budur).

Allahın dəlalət qanunu var: Ona iman etməyən, Ona təslim olmayan, ayələrini inkar edən, ehtiyacsız olduğunu düşünən azar. O da azmaq istəyənin azmasına izin verər.

Allah buyurur ki, insan qulluq və xəlifəlik (yer üzünün xəlifəsi) vəzifəsini ilahi iradəyə təslim olaraq gerçəkləşdirə bilər.

Allah ayədə inkarçıların aqibətini açıqlayır: onlar atəşin yoldaşlarıdır, orada əbədi qalacaqlar.

Cəhənnəmdə qalmaq əbədidirmi, yoxsa keçicidirmi? Bu sualla bağlı fərqli fikirlər var. Məsələn, sufilər deyirlər ki, keçicidir, belə ki Allahdan başqa hər şey keçicidir. Sələfilər deyir ki, keçicidir, belə ki əbədi olan ancaq Allahdır və Onun rəhməti qəzəbini keçmişdir. Mövlana Cəlaləddin Rumi, Musa Carullah, Məhəmməd İqbal deyir ki, cəhənnəm tərbiyə yeridir...

Allah bir çox ayəsində kafirlərin cəhənnəmdə əbədi qalacaqlarını açıq bildirmişdir. Bir neçə ayə oxuyaq:

***“Allah inkar edənlərə ancaq cəhənnəmin yolunu göstərir. Orada əbədi olaraq qalacaqlar. Bu, Allaha görə çox asandır”;*** (Nisa 4/169)

***“Şübhəsiz ki, Allah kafirləri lənətləmiş və onlar üçün alov-alov yanan bir atəş hazırlamışdır. Onlar orada əbədi qalacaqlar. Özlərinə nə bir dost, nə də yardımçı tapa biləcəklər”;*** (Əhzab, 33/64-65)

***“Mən ancaq Allahın əmrlərini təbliğ etməyə və elçiliklə bağlı məsələləri bildirməyə qadirəm. Kim Allaha, Elçisinə qarşı gələrsə, şübhəsiz ki, ona içində əbədi olaraq qalacağı cəhənnəm atəşi var”;*** (Cin, 72/23)

Ayə buyurur ki, onlar atəşin yoldaşlarıdır, yəni cəhənnəm atəşindən heç ayrılmayacaqlar.

### QIRXINCI AYƏNİN ANLAMI

*“Ey İsrail oğulları! Bir dönəm sizə verdiyim nemətlərimi xatırlayın! Siz Mənə verdiyiniz sözü yerinə yetirin ki, Mən də sizə olan vədimi tamamlayım və qayğınızın mərkəzində sadəcə Mən olum!”*

**1) “Ey israil oğulları…”**

Bu ayədən başlayaraq Bəqərə surəsinin mövzusu dəyişir. Allah İsrail oğullarına müraciət edir, bu xitab yüz qırx üçüncü ayədək davam edir. Ancaq unutmayaq ki, ünvan İsrail oğulları olsa da, mesajlar ümumidir -hamıyadır.

Öncə birinci ayədən başlayaraq qırxıncı ayəyədək davam edən bölmənin qısa özətini verək. Allah ilk beş ayədə möminləri, sıradakı iki ayədə kafirləri, ardınca on üç ayədə münafiqləri tanıdır. On üç ayə ayırdığı münafiqləri ən təhlükəli qrup olaraq göstərir. Onlar hidayət qarşılığında dəlaləti satın almış kimsələrdir

Sonra Allah insanları yalnız Ona qulluq etməyə çağırır, nemətlərini sayır, vəhyə şübhə etməyin buyurur, meydan oxuyur: şübhəniz varsa, onun kimi bir surə gətirin. O, inkarçıları cəhənnəm atəşi ilə qorxudur, inananları cənnətlə müjdələyir.

İyirmi yeddinci ayədə ömrünü israf edərək ziyana uğrayanlara bunun səbəblərini açıqlayır, hər şeyinizi borclu olduğunuz Allaha qarşı nankor olmayın deyir.

Otuzuncu ayədən qırxıncı ayəyədək (30-39) hz.Adəmlə Şeytanın qissəsinə yer verilir. Hz.Adəm insanlar üçün örnək Şeytan isə ibrətdir. Qissədə bu mesajlar önə çıxarılır: insan yer üzünün xəlifəsi olmaq (yer üzündə tövhid inancının, ədalət, barış, sevgi, mərhəmət, rifah, birlik və qardaşlığın hakim olmasını təmin etmək) üçün yaradılmışdır, o, mükəmməl və əbədi varlıq deyil, savab qazanmağa da, günah etməyə də işləmək imkanı var, iradəlidir, seçim haqqına sahibdir, günah edərkən ümidsizliyə düşməməlidir, tövbə günahları yuyar, şeytan insanın açıq düşmənidir, seçimi onu şeytanlaşdırmışdır, xətada israr insanı şeytanlaşdırar, insan Allahı unutmamalıdır, unutsa, doğru yoldan çıxacaq, yasaq ağac öz şeyin simvoludur: insana həddini öyrədir, insana imtahan dünyasındasan deyir (imtahanda uğur qazanmağın yolu Allahı unutmamaq, Onun buyruqlarını yerinə yetirməkdir), yasaq insanı maraqlandırır, axtarışa, elmə, özünü kəşfə yönəldir ...

Allah qırxıncı ayədə İsrail oğullarına müraciət edir. Hz.Adəmlə Şeytanın qissəsində İsrail oğullarına xitabla əlaqəsini qursaq, deyə bilərik ki, Allah onlara (bütün insanlara) buyurur ki, Şeytan kimi olmayın, Allahın son kitabını və son elçisini qəbul edin, yoxsa Şeytanın aqibəti sizi gözləyir.

*Ardı var...*

*Sıracəddin Hacı*

# Nəcməddin Sadıkov və Hikmət Həsənovdan izahat tələb edildi - "Tərtər işi"

**"Tərtər işi" üzrə ittiham olunan daha 4 nəfər - Ruslan Mikayılov, Sənan Maşıyev, Cabir Qəhrəmanov və Elçin Əliyevin cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.**

Sumqayıt Məhkəmə Komleksində Bakı Hərbi Məhkəməsinin sədri Zeynal Ağayevin sədrliyi, hakim Camal Ramazanovun məruzəsi ilə baş tutan iclasda təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib.

Məlum olub ki, təqsirləndirilən şəxslərdən Ruslan Mikayılov ali hərbi təhsillidir, Tərtərdə N saylı hərbi hissədə leytenant rütbəsində xüsusi təyinatlı qrupun komandiri vəzifəsində xidmət edib. Sənan Maşıyev, Cabir Qəhrəmanov və Elçin Əliyev isə gizir olub.

Daha sonra Ruslan Mikayılov vəsatətlə çıxış edib. O bu işlə bağlı həqiqətlərin ictimaiyyətə və ölkə başçısına çatdırılması üçün jurnalistlərə prosesdə çəkiliş aparmağa şərait yaradılmasını istəyib: ***"Hüquq-mühafizə orqanları bu işi qərəzli araşdırıb. Nəticədə zərərçəkənlər o cür bədbəxt eləyiblər, bizi də bu cür. Ölkə başçısı da, ictimaiyyət də bilməlidir ki, orada kimlər olub, bizə kimlər hansı əmrləri verib... Bu işdə hansı nazirlərin, hansı generalların əli var... Ölkə ictimaiyyətində bizim haqqımızda mənfi imic formalaşıb. Xahiş edirəm, media nümayəndələri dəvət olunsun, onlara çəkiliş aparmağa imkan verilsin"***

Zərərçəkmiş qismində tanınan şəxslər də onun qaldırdığı vəsatəti müdafiə ediblər.

İşgəncə nəticəsində əlil olmuş Bəhruz Novruzovun anası Aygün Novruzova da vəsatəti



müdafiə edib. O bildirib ki, bu gün məhkəmə qarşısına çıxarılan şəxslər icraçılardır. Onlara əmr verən şəxslərin də mühakimə olunması vacibdir: ***"Nazirlər, generallar olubsa, onlar da məhkəməyə cəlb olunsun. Bunlar da cinayət törədiblər. Amma onlar niyə məsuliyyətdən kənarda qalmalıdır? Hamısı öz vəzifələrində oturublar bu gün də.***

***Mənim 33 yaşında övladım əziyyət çəkir. Zəhmət çəkib övladımı müalicə elətdirsinlər. Mən sağlam oğul göndərmişdim. O vaxt MTN, Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Baş Prokurorluq – hamısı bir ağızdan deyirdi ki, casus şəbəkəsi aşkar eləmişik. İndi çıxıb cavab versinlər".***

İşgəncə nəticəsində vəfat edən Təmkin Quliyevin atası Nizami Quliyev deyib ki, əmr verənlərin məhkəmə qarşısına çıxmasında israrlıdır.

Hakim Zeynal Ağayev vəsatəti təmin etməyib. Qərarla bağlı izahat verib ki, məhkəmədə media nümayəndələri iştirak edir. Jurnalistlər Tərtər işi üzrə digər qrupların da məhkəmə iclaslarında iştirak edərək, heç bir məhdudiyyət olmadan materiallar hazırlayır, ictimaiyyətə çatdırırlar.

Lakin jurnalistlərə audio və video yazıya icazə verilmir. Məhkəmə özü prosesin həm audio, həm də videoyazısını aparır.

Təqsirləndirilən şəxslər və onların vəkilləri istintaqın natamam, qərəzli aparılmasında da şikayətləniblər.

Vəkillər işin yenidən araşdırılması üçün istintaqa qaytarılması haqda vəsatət qaldırıblar.

Elçin Əliyevin vəkili Türkel Süleymanlı bu cinayət işi obyektiv, hərtərəfli araşdırılması üçün yenidən istintaqa qaytarılmasının vacib olduğunu deyib.

Zərərçəkmişlər, digər vəkillər də istintaqa qaytarılma ilə bağlı onun qaldırdığı vəsatəti müdafiə edib.

Ruslan Mikayılovun vəkili əlavə əsas kimi, istintaq dövründə öz müvəkkilinə qarşı çoxsaylı qanun pozuntularına yol verilməsini göstərib: ***"İstintaqda qanunun tələbləri kobud şəkildə pozulub".***

Sənan Maşıyevin vəkili bildirib ki, keçmiş Baş Qərargah rəisi ilə yanaşı, hazırda eyni vəzifəni daşıyan şəxsin də adı bu cinayət işində hallanır: ***"Çox təəssüf ki, bu cinayət işi üzrə istintaq hərtərəfli aparılmayıb".***

Məhkəmədə əlavə şahidlərin dindirilməsi haqda da vəsatətlər qaldırılıb. Dindirilməsi tələb olunan əlavə şahidlər əsasən vəzifəli şəxslər olub.

Bunların arasında Hərbi Prokuror Xanlar Vəliyev və onun tabeliyində çalışan müstəntiqlər, Tərtər Hərbi Prokurorru və bu qurumun müstəntiqləri, 2017-ci ildə korpus komandiri olan general Hikmət Həsənov, Hərbi Dəniz Qüvvələrinin rəhbəri Zaur Quliyev, sabiq Baş Qərargah rəisi Nəcməddin Sadıkov, Müdafiə Nazirliyinin Bakı və Bərdə qarnizonlarının rəisləri, Mərkəzi Hərbi Hospitalın, eləcə də Sarıcalı hospitalının o vaxtkı rəhbərləri var.

Zərərçəkənlər də bu şəxslərin dindirilməsinin vacib olduğunu bildiriblər.

Məhkəmə əlavə şahidlərin dindirilməsi haqda vəsatətin baxılmamış saxlanmasına qərar verib.

Növbəti proses iyunun 7-də davam edəcək.

Cinayət işi üzrə 186 nəfər zərərçəkmiş qismində tanınıb.

Qeyd edək ki, 2017-ci ildə bir qrup azərbaycanlı hərbçi Ermənistan xüsusi xidmət orqanlarına casusluq etməsi şübhəsi ilə Azərbaycan hüquq-mühafizə orqanları və ordunun vəzifəli şəxslərinin göstərişləri ilə Tərtər və ətraf ərazilərdə işgəncələrə məruz qalıb.

Qeyri-rəsmi mənbələrdə işgəncəyə məruz qalan şəxslərin əhatə dairəsinin 1000-dan çox olduğu bildirilir. Həmin şəxslərin ailələri və cəmiyyətin ictimai basqısından sonra "Tərtər işi"nin istintaqı 2021-ci ildə təzələnib. Məlum olub ki, vətənə xəyanətdə itiham olunan şəxslərin çoxu günahsızdır və onların əksəriyyəti bəraət alıb. Bir neçəsinə ölümündən sonra bəraət verilib.

Xatırladaq ki, Tərtər hadisələri ilə bağlı hazırda daha iki məhkəmə prosesi davam etdirilir. Aralarında general-mayor Bəkir Orucovun da olduğu 9 nəfər iki ayrı icraatda mühakimə olunur. İki iş üzrə zərərçəkmişlərin sayı 250-dən çoxdur. Bununla da rəsmi olaraq ittiham olunanların sayı 13, zərərçəkmişlərin sayı 440-ı ötüb.

***Müəllif: Hacı Zeynalov***

# Tərtər qətliamı dövlət çevrilişinə aparan yol idi

**Tərtərdə törədilmiş ağır cinayətlə ilgilənən hər kəsi daim bu, suallar maraqlandırır: belə bir qəddar cinayəti, özü də açıq-açkarçəkildə törətməkdə məqsəd nə idi? Cinayətkar xain çətə öz cinayəti ətrafında bu qədər geniş şəbəkəni necə yarada bilmişdi?**

Cinayətin ilk günlərindən onun sonunadək ictimai rəyi yönəldən (əslində isə çaşdıran) "ekspertlərdən", "siyasətçilərdən", "bloggerlərdən" və digər "ictimai fəallardan" tutmuş aşağı məhkəmə instansiyalarında saxta hökmlər çıxaran və onları Ali Məhkəmədə təsdiqləyən hakimlərədək hər kəsi bir araya kim və necə gətirmişdi?

Tərtər qətliamı başlayandan cəmi 2-3 gün sonra "ekspert", "siyasətçi" adına həvəslə açıqlamalar verən cinayət dəstəkçilərinin media vasitəsilə yanlış rəy formalaşdırmaları onların buna əvvəlcədən hazırlıqlı olduqlarına dəlalət etmirdimi?

Bütün suallara cavab tapmaq üçün yenidən 2016-cı ilin aprel döyüşlərinə və ardınca da 44 günlük müharibəyə müraciət etməliyik. Əslində isə bir qədər daha əvvələ. Amma hər bir haqda ayrıayrılıqda.

Aprel döyüşlərinin bir növ test olduğu bu gün artıq heç bir sual doğurmur, çünki on illər idi dalana dirənmiş danışıqların heç bir nəticə verməyəcəyi və münaqişənin həllinin hərbi müstəviyə keçəcəyi də bəlli idi.

Münaqişə isə həll olunmalı idi, çünki




bunu qarşıdan gələn geosiyasi mübarizə tələb edirdi. Odur ki, xain çətə də artıq aprel döyüşlərindən əvvəl formalaşdırılmalı idi və belə də olmuşdu.

Əslində o, hər zaman mövcud olmuşdu, sadəcə aprel döyüşləri ərəfəsində ona yeni və çoxmərhələli təlimatlar verilmişdi.

İlk növbədə aprel döyüşlərində sabotaj və xəyanət olmalı idi ki, əvvəla, Azərbaycan uğur əldə edə bilməsin, ikincisi isə gələcək addımlar üçün şərait yaradılmış olsun.

Növbəti mərhələdə xain çətə yenidən təşkilatlanmalı və qarşıdan gələn daha böyük savaşda məğlubiyyəti təmin etmək üçün öncədən ordunu sındırmalı, onu xalqın gözündən salmalı, aprel döyüşlərində fərqlənmiş hərbçiləri sıradan çıxarmalı idi.

Tərtərdə törədilən vəhşilik də elə bu məqsədə xidmət edirdi. Bunun ardınca gələn savaşda ordu şimal istiqamətində məğlub olmalı və Tərtər-Göranboy zonasına Rusiyanın işğalçı ordusu "sülhməramlı" adı altında yerləşdirilməli, Gəncə dəhlizini tam nəzarətə götürməli idi.

Beləliklə də əsas geosiyasi vəzifələrdən biri – Orta Dəhlizin keçməli olduğu Gəncə Dəhlizinin Rusiyanın nəzarətinə keçməsi və onun Şimal-Cənub dəhlizinin bir parçasına çevrilməsi təmin olunurdu.

Amma burda da bir sual açıq qalır ki, Azərbaycanın məğlubiyyətinə görə məsuliyyət kimin üzərinə qoyulmalı idi və ümumiyyətlə hərbi məğlubiyyətin səbəbləri xalqa necə izah olunmalı idi?

Axı məğlubiyyət olduğu halda buna görə mütləq məsuliyyət də olmalıdır və həmin məsuliyyəti təkcə hansısa hərbçilərin deyil, həm də və ilk növbədə elə siyasi hakimiyyət nümayəndələri daşıyırlar.

Planın həmin hissəsinin hansı sxem üzrə icra edilməli olduğunu anlamaq üçün isə 2013-cü il prezident seçkiləri ərəfəsində və ondan sonra baş verən hadisələrdən başlamalıyıq.

Xüsusilə də Azərbaycanın hərbi-dəniz qüvvələrinin dağıdılması və bunun ardınca Xəzərin statusunun dəyişdirilməsindən başlayaraq 2016-cı ilin aprel döyüşlərindən, 2017-ci ildə törədilmiş Tərtər qətliamının təhlilindən keçib, 2018-2020 illərdə baş verən siyasi dəyişiklikləri xronoloji ardıcıllıqla araşdırmalı olacağıq.

Həmin təhlilin nəticələri isə göstərir ki, Tərtərdə qətliam törətmiş çətənin vəzifəsi təkcə həmin qanlı cinayəti törətmək deyildi. Xəyanətkar çətənin qarşısında daha ciddi vəzifə dayanırdı.

Bəlkə də həmin vəzifə elə bu gün də qalmaqdadır və o, hərbi məğlubiyyətin ardınca Azərbaycanda dövlət çevrilişi həyata keçirib ölkəni tam təcrid etmək və cəmiyyəti nəzarətə götürmək idi.

Elə həmin məqsədlə də xəyanətkar çətənin fəaliyyətinə qatılmış şəxslər arasında ilk gündən vəzifələr də müvafiq şəkildə bölünmüşdür ki, gələcəkdə hər kəs Tərtər qətliamında yerinə yetirdiyi vəzifəsini daha geniş miqyasda (bütün əhaliyə qarşı) icra etmək üçün "sınaqdan" keçsin.

(davamı var)

***Ərastun Oruclu***

**Sara xanım atasının məktəblərində oxumuş məzunlardan, onun müəssisələrində işləmiş işçilərdən Tağıyev haqqında yazılı xatirələr toplamışdı. Onların demək olar ki, hamısı Hacını xoş və səmimi sözlərlə anırdılar. Məsələn, Azərbaycan Dövlət Universitetinin professoru, Azərbaycan Yazıçılar İttifaqının üzvü Mirzə Feyzulla Qasımzadə xatırlayırdı ki, Hacı Zeynalabdin Tağıyev 1896-cı ildə Bakı quberniyasının Mərdəkan kəndində kəndli uşaqlarını oxutdurmaq məqsədi ilə məktəb açmışdı. Mən özüm şəxsən 1908-1912-ci illərdə həmin məktəbdə təhsil almışam. Belə məktəbləri o, yalnız Mərdəkanda deyil, Azərbaycanın digər kəndlərində də açırdı. Mənə məlumdur ki, belə məktəblərdən birini o, keçmiş Göyçay qəzasının Qəziyan kəndində inşa etmişdi. 1917-ci ilin fevralında mən Qəziyanda həmin məktəbə ibtidai siniflər üzrə müəllim təyin edilmişdim. Mən kəndin mərkəzində yerləşən 7-8 otaqdan ibarət olan bu məktəbdə dərs deyirdim.**

# Sara Sarayevanın səksəkəli taleyi

*(Əvvəli ötən sayımızda)*

Digər bir xatirəsində professor Mirzə Feyzulla yazırdı ki, ***“bir dəfə Azərbaycan Sovet hökumətinin sədri Nəriman Nərimanov Mərdəkana gəlmişdi. Yığıncaqda çıxış edərkən o, Hacının adını xatırlatdı. Yığıncaqdan sonra kəndlilərdən biri ona məlumat verdi ki, Tağıyev xəstədir. Nərimanov dedi ki, 1906-cı ildə keçirilmiş müəllimlər qurultayında bir məsələnin müzakirəsində mən Hacı ilə mübahisə etmişəm. Lakin buna baxmayaraq o, çox yaxşı və çox faydalı adamdır. Mən gedib ona baş çəkməyi öz borcum hesab edirəm. Bunu deyib o, getdi, Hacıya baş çəkdi və səhhətini soruşdu”.***

Bu epizod ayrı bir xatirədə də keçirdi. Mərdəkandan Əliyev Eldar Əsgər oğlu öz xatirəsində yazırdı: ***“1920-ci ildə Azərbaycanda Sovet hökuməti qurulduqdan sonra mən həmin Mərdəkan kəndində birinci revkom olmaqla, eyni zamanda Mərdəkan kənd icraiyyə komitəsinin sədr müavini (1922-ci ildə) olmuşam. 1922-ci ildən sədr vəzifəsində işləmişəm. Bu illərdə yoldaş Nəriman Nərimanov Mərdəkan kəndinə gəlib, kəndin ictimai, mədəni və maarif işlərini daha da qaldırmaq məqsədi ilə söhbətlər aparırdı. Eyni zamanda Nəriman Nərimanov dəfələrlə bizə tapşırırdı ki, siz Hacıdan muğayat olun, onun hörmətini saxlayın, çünki o, maarifpərvər və xalq maarifi uğrunda çalışmış adamdır. Heç vaxt onu başqa dövlətlilərlə bir tutmaq olmaz. O, xalqın istirahətini, mədəniyyətini sevən və onu yüksəklər qaldıran bir şəxsdir.***

***Mərdəkan kəndinin 9 nəfər sakini də Tağıyevin xeyirxahlığı, kənd əhalisinə göstərdiyi diqqət və qayğı haqqında ürək sözlərini yazıb Sara xanıma vermişdi. Milliyyətcə erməni olan müəllim A.Abroyanın xatirələrində çox maraqlı məqamlar var idi. O, yazırdı ki, Azərbaycan SSR Xalq artisti Alma xanım Safrazyanla mən 1923-cü ildə tanış olmuşdum. Alma xanım Azərbaycan dram teatrına gələnə qədər səhnədə qadın rollarını kişilər oynayırdı. Safrazyan mənə mədəniyyət və incəsənətlə əlaqəsi olan adamlara Tağıyevin böyük diqqətindən danışdı. Tağıyev “Safrazyanlar ailəsinin vərəmə tutulmuş oğlunu müalicə üçün İsveçrəyə göndərmişdi”.***

Nəriman Nərimanovun yaxın qohumu həkim Nabat xanım Nərimanova 17 il ərzində (1901-1917) Tağıyev məktəbini bitirmiş 700 qızdan biri idi. Yoxsul ailədən çıxdığı üçün o, təhsil haqqı ödəmirdi. Nabat xanım Tağıyev məktəbi haqqında xatirələrində qeyd edirdi ki, tədris proqramından başqa şagirdlərə əlavə olaraq paltar biçmək və tikmək peşəsini də


Sara xanımın həyat yoldaşı Nikolay Sarayev

öyrədirdilər. Bundan əlavə klassikləri öyrənmək vasitəsi kimi qız şagirdləri faytonlarla ***“Yevgeni Onegin”***, ***“Demon”***, ***“Otello”*** və başqa tamaşalara aparırdılar... Hər iki-üç gündən bir diş həkimi gəlib şagirdlərin dişlərini yoxlayırdı. Terapevtlər demək olar ki, sistematik olaraq məktəbdə oxuyan qızların sağlamlıq vəziyyətinə nəzarət edirdilər. Müayinə zamanı sağlamlığında şübhəli məqamlar olan şagirdlər xüsusi guşələrdə saxlanılırdı”.

Məktəbin məzunu olan həkim Şəhrəbanu xanım Şabanovanın (Xasməmmədova) da Tağıyev və qızlar məktəbi haqqında xatirələri çox maraqlı idi. O və bacısı Xavər xanım Qarayeva (Əliheydər Qarayevin həyat yoldaşı) təhsil haqqından azad edilmişdilər. Şəhrəbanu xanım xatırlayırdı ki, onun oxuduğu dövrdə məktəbin bütün işçiləri qadınlardan, direktor Məryəm xanım Sulkeviç, sonra Gülbahar Axriyeva, müəllimələr Rəhilə xanım Hacıbababəyova-Terequlova, Gülsüm xanım Subhanqulova, Mavila xanım Palovandrova, Səriyyə xanım Əhmədova, Adilə xanım Şahtaxtinskaya və digərlərindən ibarət idi. Müstəsna hal kimi dairə maarif inspektoru Sultan Məcid Qənizadə, həmin vaxt azərbaycanlı qadın həkim olmadığı üçün kişi həkim və bir də məktəbin gözətçisi olan yaşlı tatar Cəmaləddin məktəbə girə bilərdilər.

Şəhrəbanu xanım yazır: ***“Tağıyev tez-tez məktəbə gəlirdi. O, bizimlə söhbət edir və oxumağı, gözlərimizin açılmasını təşviq edirdi. Onun xanımı Sona xanım demək olar ki, hər gün məktəbə gəlirdi. Böyük bayramlarda bizi Tağıyevin evinə nahar və günorta yeməyinə dəvət edirdilər. Orada bizi onun bizimlə həmyaşıdlarımız olan qızları qarşılayırdı... Əgər ilk dövrlərdə təhsil alan qızlar hamısı kənardan gəlirdilərsə, bir az sonra Bakı elitasının uşaqları olan yerli qızlarda onların arasında görünməyə başladılar”.***

Məktəbin məzunu İzzət xanım Məcidova öz xatirələrində müsəlman cəmiyyətində qızlar üçün məktəb açmağın çətinliklərinə toxunaraq yazırdı ki, ***“valideynlərim məni məktəbə qoyanda, buna görə ictimaiyyət bizim ailəni baykot etməyə başladı”***. O, Tağıyevin xeyirxahlığını belə səciyyələndirirdi: ***“mən balaca olanda vəba və aclığa düçar olan adamlara göstərdiyi yardıma görə xalq arasında onun haqqında mahnılar dolaşırdı, onun yalnız bir bəndi yadımda qalıb:***

***Hacı Zeynal Abidin,***
***Xas bəndədir xudayə.***
***Açıb düyü anbarın,***
***Paylayır füqəraya!”***

***1914-1917-ci illərdə qızlar məktəbində oxumuş Gövhər xanım Usubova Qazaxın Salahlı kəndindən idi. O, valideynlərini erkən yaşlarında itirmişdi. 7 yaşına qədər tərbiyə etdikdən sonra dayısı onu və bacısını Tağıyev məktəbinə vermişdi. Onlar məktəbdə pulsuz oxuyur və pansionatda yaşayırdılar. Gövhər xanım deyirdi ki, hər bayramda bizim məktəbin yuxarı sinifdə oxuyan qızlar Hacının qonağı olurdular, kiçik yaşlı qızlara isə Sona xanım müxtəlif şirniyyat və tortlar göndərirdi. Hər cümə günü uşaqları əyləndirmək üçün bizə konsert göstərirdilər.***

***Şagirdlərin öz gücü ilə məktəbdə “Arşın mal alan” pyesini göstərəndə əsas rolu Reyhan xanım Axundova (professor Topçubaşovun həyat yoldaşı) oynayırdı... Bizim məktəbdə çox yaxşı səhnə var idi. Həmin səhnədə şagirdlər tez-tez Sabirin “Oxutmuram, əl çəkin” şeirini deyirdilər. Çox balaca olmağıma baxmayaraq mən də bir dəfə o şeiri dedim. Hacı özü səhnədə məni qucağına aldı, öpdü və başımı sığalladı”.***

Məşhur bəstəkar Qara Qarayevin anası Sona xanım Axundova da qızlar məktəbinin məzunu kimi Tağıyev haqqında öz fikirlərini yazmaqdan çəkinməmişdi. O, Tağıyevin tez-tez məktəbə gəldiyini və şagirdlərlə söhbət etdiyini xatırlayaraq qeyd edirdi ki, bir gün Hacı məktəbdə bizimlə söhbətində dedi: ***“təhsil almadan siz yaxşı ana ola bilməzsiniz”.***

Belə tanınmış məzunlarla yanaşı Sara xanım Bakı, Mərdəkan, Əhmədli, Zığ və digər şəhər, kənd və qəsəbələrdə yaşayan, vaxtilə Tağıyevin müəssisələrində işləmiş, onun xeyirxahlığının şahidi olmuş sadə insanlardan da atasının xeyirxahlığı haqqında xatirələr toplamışdı. Bunlardan Mövsüm Məmmədovun, Əhmədli Həsən Hacı Abbasqulu oğlunun, Qafar Qafarovun, Rzayev Ələbbas Məmməd Hənifə oğlunun, Səfərova Dostuxanımın, Bilqeys Baqiyevanın, Qurbanov Qurban Rzaəli oğlunun, Sima Əliyevanın, Dadaş Əliyevin, Hacıbəy Əlizadənin, Mürsəl Əliyevin, İsmayıl Mailovun, Ağababa Aslanovun, Məmmədsadıx Hüseynovun, Hacırza Məmmədovun? ***"Dəbistan"*** jurnalının redaktorunun və digərlərinin Tağıyev haqqında dedikləri çox maraqlı idi. Sara xanım çoxlu sayda belə xatirələr toplamış, onların hamısını rus dilinə tərcümə edib SSRİ-nin və Azərbaycan SSR-in partiya və hökumət rəhbərlərinə, mətbuat orqanlarına göndərmişdi. O, bu xatirələr və topladığı arxiv materialları, çap olunmuş elmi ədəbiyyat əsasında 243 səhifə həcmində bir əlyazma hazırlamışdı və onu kitab kimi nəşr etmək istəyirdi. Sara xanım bu əlyazmanın bir surətini Azərbaycan KP MK Təbliğat və Təşviqat şöbəsinin müdiri Şıxəli Qurbanova vermişdi. Qurbanov isə onu rəy üçün Azərbaycan SSR EA-nın tarix institutunun direktoru akademik İsmayıl Hüseynova göndərmişdi.

Sara xanım böyük çətinliklər hesabına topladığı bu xatirələri göz bəbəyi kimi qoruyurdu. Onlar hamısı adamlar tərəfindən əl yazısı ilə, öz xətləri ilə yazılmışdı. Bütün ömrü boyu bu xatirələri bir yerə çıxanda özü ilə gəzdirirdi ki, hər yerdə sülənən DTX casusları onların əslini ələ keçirməsin. Həmin əlyazmaların bəzilərinin surətini Sizin üçün qoyuram bura...

*Ardı var*



**Professor Cəmil Həsənli**

*"Kütləvi informasiya vasitələrini mənə verin, mən istənilən xalqdan donuz sürüsü düzəldim..."*
***Yozef Göbbels***

# Bir günlük reyxkansler, axsaq arvadbaz, fanatik nasist



## Hitlerin ən məşhur kadrlarından olan Göbbelsin sonu

**Onun adı 20-ci əsrin tarixinə nasist Almaniyasının ən nüfuzlu siyasi fiqurlarından biri kimi düşüb. Ziddiyyətli və mürəkkəb, bacarıqlı və hiyləgər, qəddar və amansız xarakterə malik olan Yozef Göbbels Hitlerin ən yaxın silahdaşlarından və dostlarından biri sayılıb.**

1897-ci ildə Almaniyanın Reydt şəhərində anadan olan Göbbelsin uşaqlığı xəstəliklərlə keçib. 4 yaşında bud sümüyündə keçirilən əməliyyatdan sonra onun bir ayağı 10 sm qısalıb ki, bu da onun ömürlük axsaqlığına səbəb olub.

Fiziki baxımdan qüsurlu olan Göbbels uşaqlıq illərindən həmyaşıdlarının istehzası ilə üzləşib, onu "axsaq" deyə çağırıblar, məhəllə oyunlarına qatılmağına imkan verməyiblər. Göbbels üçün digər bir sıxıntını ailənin maddi vəziyyətinin aşağı olması yaradıb. Belə ki, yeddi nəfərlik ailəni zavodda mühasib işləyən atası çox da yüksək olmayan maaşla dolandırıb. Bütün bunlar Göbbelsin uşaqlıq illərinə xoşagəlməz izlər buraxıb. Həyatdan incik düşən Göbbels baş verənləri ədalətsizlik kimi qiymətləndirib.

Ətrafdan təcrid olunan Göbbels uşaqlıq və yeniyetməlik illərini kitablara, mütaliəyə bağlayıb, tarix, ədəbiyyat və musiqiyə daha çox üstünlük verib, oxuduğu gimnaziyada biliyinə görə həmyaşıdlarından fərqlənib, müəllimləri onun gələcəyinə ümidlə baxıblar.

Göbbels 4 universitetdə təhsil alıb, elmi iş müdafiə edib, 1924-cü ildən jurnalistika fəaliyyətinə başlayıb. 1927-ci ildə nasistlərin təsis etdiyi "Der Angriff" ("Hücum") qəzetinin baş redaktoru olanda, o, fərqli bir reklam nümayiş etdirib. Birinci reklam lövhələrində "Hücuma birimlə birgə" ifadəsi həkk olunub. İkinci reklam lövhələri daha çəlbedici görünüb: "Biz iyulun 4-də hücum edirik!" Beləliklə də, 1927-ci il iyulun 4-də qəzetin ilk sayı işıq üzü görüb və qısa müddət ərzində qəzet böyük oxucu auditoriyası qazanıb.

Yozef Göbbelsin natiqlik qabiliyyəti müqayisəyə gəlməz dərəcədə qiymətləndirib. Mükəmməl nitq, məntiqi ardıcıllıq, inandırmaq və özünə cəlb etmək bacarığı onu ölkənin ictimai və siyasi həyatında kifayət qədər populyarlaşdırıb.

Qatı Hitlerpərəst olmağı ilə seçilən Göbbels bir-birinin ardınca yazdığı məqalələrdə, kütləvi tədbirlərdə Hitlerin bir nömrəli təbliğatçısına çevrilib. Hətta o, yazdığı kitabların birini Hitlerə həsr edib. Təbii ki, bu sədaqət və canfəşanlıq nəticəsiz qalmayıb. Ədəbiyyat və jurnalistikadan siyasətə transfer olunan Göbbels siyasi karyerasında sürətlə irəliyə doğru addımlayıb.

Berlin şəhərinin müdafiə komissarı, sonra Berlinin qulyayteri (vilayət miqyaslı rəhbəri), nasist partiyasının təbliğat idarəsinin başçısı vəzifələrini daşıyan Göbbels 1933-cü ildə Almaniyanın xalq təhsili və təbliğat naziri təyin edilib.

Bu vəzifəyə təyinatından sonra Göbbelsin daha bir "bacarığı" üzə çıxıb. Nazir kimi o, ölkənin bütün mədəniyyət, incəsənət, təhsil, ədəbiyyat, kino, teatr sahələrinə rəhbərlik edib. Qadınların daha çox çalışdığı bu sahələrdə fiziki qüsurlarına görə gənclik illərində seksual əyləncələrdən məhrum olan Göbbels üçün yeni imkanlar açılıb. Film və teatrlarda rol almaq istəyənlər Göbbelslə intim yaxınlıq etməyə məcbur olublar. Onun şəhər kənarandakı bağ evi və şəxsi yaxtası əsl fahişəxananı xatırladıb. Həyat yoldaşı və altı övladı olmasına baxmayaraq, Göbbels eşq macəralarından əl çəkməyib. Amma sonda o, bu vəhşi şəhvətinə görə Hitlerin qarşısında diz çökməyə məcbur olub.

Göbbels nasist partiyasının üzvü olan Maqda Kvandt ilə ailə həyatı qurub. Maqdanın birinci həyat yoldaşı məşhur "BMV" şirkətinin təsisçilərindən biri olub. Göbbelsin nitqinə vurğun olan xanım onunla ailə qurmağa qərar verib. Ailəvi dostluq etdiklərindən, Hitler Maqdaya böyük hörmət bəsləyib. Maqda həyat yoldaşının xəyanətindən xəbərdar olsa da, məsələni çox qabartmayıb. Amma o, Göbbelsin növbəti sevgilisi ilə bağlı Hitlerə müraciət etmək məcburiyyətində qalıb. Belə ki, Göbbels bütün çərçivələri keçərək növbəti məşuqəsi olan çex aktrisa Lida Barovanı evinə dəvət edib. Xanımlar açıq söhbətə başlayıblar, Göbbelsi necə "böləcəklərini" müzakirə ediblər. Maqda həyat yoldaşının aktrisa ilə münasibətlərinə razılıq verib. Amma bir şərtlə ki, onların uşaqları olmasın. Maqda bunu öz ailəsini dağıtmamaq məqsədi ilə edib. Bu həmin Lida Barova olub ki, ona ilk dəfə Hitler göz salıb. Almaniyada gedən çəkilişlərin birində Hitler aktrisa ilə sırf təsadüf nəticəsində tanış olub. Tanışlıqdan sonra fürer onu çay süfrəsinə dəvət edib. Bu cür görüşlər bir neçə dəfə olub və bu görüşlərdə Göbbels də iştirak edib. Növbəti görüşlərin birində Hitler təcili işlə bağlı görüşə gələ bilməyib. Göbbelsin ixtiyarında qalan aktrisa nazirin toruna düşüb və o, böyük "ustalıqla" Lida Barovanı fürerdən təcrid edib. Artıq xəyanətlərə tab gətirməyən Maqda Göbbelsin əməlləri haqqında Hitleri məlumatlandırıb. Fürer Göbbelsi "xalça" üzərinə çağırıb. Nazir onun qarşısında diz çökərək əfv diləyib. Bu hadisədən sonra aktrisa Lida Barova arzuolunmaz şəxs kimi Almaniya ərazisinə buraxılmayıb.

Hitler komandasının ən savadlı və bacarıqlı kadrı sayılan Göbbelsə II dünya müharibəsi zamanı fürer tərəfindən xüsusi səlahiyyətlər verilib. Onun müdafiə sənayesi, səfərbərlik, məxfi əməkdaşlıq və s. məsələlərə də müdaxilə etmək hüququ olub.

Müharibənin sonuna yaxın Hitler Berlini tərk etmək etmək fikrinə düşəndə, məhz Göbbels onu bu fikirdən daşındırıb, "siz bəşəri adınızı qorumaq üçün bu addımı atmamalısınız" deyə onu Berlini tərk etməkdən çəkindirib.

Göbbels müharibənin son anına qədər mübarizə aparıb. Hitler intiharından əvvəl onu reyxkansler təyin edib. Göbbelsə bu vəzifəni daşımaq cəmi bir gün qismət olub - 1 may 1945-ci ildə.

Uşaqlığı acınacaqlı keçdiyi kimi, Göbbelsin sonu da acınacaqlı olub. Tərəflərin danışıqlara getmədiyindən, SSRİ-nin qeyri-şərtsiz kapitulyasiya tələbindən sonra, Göbbels əvvəlcə uşaqlarını zəhərləyərək öldürüb. Fürerin bunkerindən çıxanda, telefonçuya "siz mənə daha lazım deyilsiniz, gedə bilərsiniz" deyə həyətə çıxıb, özünü və həyat yoldaşını güllələyib. Əvvəlcədən isə meyitlərinin yandırılmasını vəsiyyət edib.

Beləliklə də 47 yaşlı təbliğat nazirinin, bir günlük reyxkanslerin siyasi karyerasına son qoyulub.

# 46 il əli qızılla oynayan nazir

## Stalinin kadrı Lomako Qorbaçovun vaxtında təqaüdə çıxıb

Ginnesin Rekordlar Kitabına təbiətdə qeydə alınan qeyri-adiliklər, insanlar tərəfindən əldə edilən ən yüksək nəticələrlə yanaşı, eyni yüksək vəzifədə uzun müddət işləyənlərin adları da düşüb. 1988-ci ildə bu umumdünya rekordlar kitabına nazir vəzifəsində iş stajına görə Pyotr Lomakonun da adı salınıb. Lomako 46 il, 1940-cı ildən 1986-cı ilə qədər (arada qısa fasilələrlə) SSRİ-də əlvan metallurgiya sahəsinə rəhbərlik edib. Dünyada ikinci bir şəxs belə bir rekorda nail olmayıb.

Pyotr Lomako 1904-cü ildə Kuban vilayətinin Temryuk şəhərində anadan olub. O, orta təhsilini başa vurduqdan sonra ilk əmək fəaliyyətinə Temryuk şəhər partiya komitəsində başlayıb, əvvəlcə kuryer, sonra qeydiyyatçı vəzifəsində işləyib. 1922-ci ildə Lomako Krasnodar vilayətində banditizmə qarşı mübarizə dəstəsinə siyasi komissar vəzifəsinə təyin edilib. Bu vəzifədə bir il nümunəvi xidmətdən sonra o, fəaliyyətini komsomol orqanlarında davam etdirib, Temryuk şəhər komsomol komitəsində şöbə müdiri vəzifəsində çalışıb.

1932-ci ildə Moskva Dövlət Əlvan Metallar və Qızıl Universitetini bitirdikdən sonra Lomako komsomol orqanlarından ayrılaraq istehsalatda işləməyə başlayıb. O, 1937-ci ilə qədər Leninqraddakı əlvan metallar emal edən "Qırmızı seçici" zavodunda briqadir, baş usta, sex rəisi, zavod direktorunun müavini vəzifələrində işləyib və ittifaq miqyasında əlvan metallar sahəsi üzrə ən yaxşı mütəxəssislərdən biri kimi tanınıb.

1937-ci ildə Lomako Moskvaya dəvət olunub. SSRİ Xalq Komissarları Sovetinin (sonralar Nazirlər Soveti) sədri Vyaçeslav Molotovla görüşdən sonra Lomako Vladimir vilayətində yerləşən Kalçugino əlvan metallar zavoduna baş direktor vəzifəsinə təyinat alıb. Moskva görüşündə onun qarşısına böyük öhdəlikdər qoyulub.

Lomako ona göstərilən etimadı doğrultmağı bacarıb. Rəhbərlik etdiyi zavodun istehsal gücü altı ay ərzində digər əlvan metallar emalı müəssisələrini üstələyib. Buna baxmayaraq, SSRİ-də metallurgiya sahəsinin inkişafına daha böyük ehtiyac duyulub. Bu ehtiyacı ödəmək üçün Mərkəzi Komitə və Nazirlər Soveti Lomakonun bilik və bacarığından, təcrübəsindən daha çox bəhrələnməyə qərar verib.

1939-cu ildə 35 yaşlı Lomako SSRİ əlvan metallurgiya nazirinin müavini təyin edilib. Bu vəzifədə o, bir sıra qiymətli metal yataqlarının aşkar edilməsi və istismarına nail olub. Bir ildən sonra isə Lomako 36 yaşında nazir vəzifəsinə təyinat alıb.

46 illik nazir fəaliyyətində Lomako üçün ən ağır dövr sovet-alman müharibəsi illəri olub. Muharibə illərində Lomakonun üzərinə həm metallurgiya zavodlarının Urala təxliyə edilməsi, həm də hərbi-sənaye müəssisələrinin fasiləsiz xammala təmin etmək kimi çətin vəzifələr düşüb. Müvafiq məslələrlə bağlı Lomako mütəmadi olaraq Stalinin yanına çağrılıb. Vyaçeslav Molotov öz xatirələrində sovet lideri ilə nazirin görüşlərini aşağıdakı kimi xatırlayıb:

"Dövlət Müdafiə Komitəsinin qərarı ilə metallurgiya zavodlarının təxliyəsi Lomakoya həvalə edilmişdi. Bu, olduqca ağır bir proses idi, zavodların daşınması, yenidən qurulması vaxt tələb edən iş idi. Bununla yanaşı, eyni zamanda hərbi sənaye müssisələrinin xammalla təmin edilməsinə də Lomako cavabdehlik daşıyırdı. 1942-ci ildə Dövlət Müdafiə Komitəsi "Uran üzrə işlərin təşkili haqqında" proqram qəbul edəndə də, Stalin bu proqramın icrasını rəsmi olaraq Lomakoya tapşırmışdı. Lomako çox nadir insanlardan biri idi ki, o, eyni zamanda bir neçə ağır və mürəkkəb işi yüksək səviyyədə icra etməyi bacarırdı. Müharibə illərində Stalin Lomakoya ümid yeri kimi baxırdı..."



Ağır müharibə illərində və ağır Stalin rejimində uğur rəmzi sayılan Lomako Xruşovun hakimiyyəti illərində "anlaşılmazlıq" problemləri ilə üzləşib. İslahat fəaliyyətini "qarğıdalıya" yönəldən Xruşova əlvan metallurgiyanın inkişafının vacibliyini başa salmaq Lomakoya heç də asan başa gəlməyib. Amma nazir sonda müvafiq sahə ilə bağlı Xruşovun fikrini dəyişə bilib, ölkədə yeni zavodlar tikilib, əlvan metallurgiya sahəsi SSRİ-nin büdcəsini zənginləşdirib.

Leonid Brejnevlə işləmək isə ona daha rahat olub. Baş katib Lomakonu "cəbhə dostu" adlandırıb, onun müharibə illərindəki xidmətlərini yüksək qiymətləndirib. Məhz 1960-cı illərdə Lomakonun rəhbərliyi ilə nadir, əlvan və qiymətli metalların istehsalında keyfiyyət və kəmiyyət sıçrayışı baş verib, Yakutiyada iri miqyaslı almaz hasilatına başlanılıb, SSRİ-nin müxtəlif regionlarında onlarla əlvan metal filizlərinin yeni yataqları aşkar edilərək istismara verilib.

SSRİ-nin bütün rəhbərləri dövründə Lomako ən yüksək dövlət mükafatları ilə təltif edilib. O, Sosialist Əməyi Qəhrəmanı adına, yeddi dəfə "Lenin" ordeninə və çoxsaylı medallara layiq görülüb. "Qızıl ulduz"u isə nazirə şəxsən Leonid Brejnev təqdim edib, Kremldə onun şərəfinə ziyafət verib.

Sovet dövründə Lomakonu "əlvan metallurgiya sənayesini atası" adlandırıblar. Ölkənin ayrı-ayrı bölgələrində onun adı küçə və prospektlərə, zavodlara verilib, yaşadığı və işlədiyi yerlərdə memorial lövhələri vurulub.

Lomako 1986-cı ildə səhhəti ilə bağlı SSRİ əlvan metallurgiya naziri vəzifəsindən təqaüdə çıxıb.

Uzun illər nazir olsa da, ömrünün ən enerjili illərini əlvan metal filizlərinin yataqlarında, zavodlarda keçirən Pyotr Lomako 1990-cı ildə, 85 yaşında vəfat edib. O, Moskvada, Novodeviçye qəbirstanlığında dəfn olunub.

**Təqdim edən: İlham Cəmiloğlu**

# Paralel

**Son səhifə**

www.paralel.az
e.mail adresi:
paralel_qazeta@mail.ru

№ 060 (3628) 25 may 2023-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik




## Vaxtında yetişən qarpız-yemiş orqanizm üçün faydalıdır

**May ayı olsa da, bazar və marketlərdə qarpız və yemiş satışına başlanılıb. Mövsümündən əvvəl satışa çıxarılan həmin məhsullar mineral gübrələrin köməyi ilə yetişdirilir. İki ay yarım ərzində ərsəyə gələn qarpız üçün lazım olan istilik məhz iyul-avqust aylarında olur. Ona görə də mütəxəssislər mayda həmin məhsulu yeməyi tövsiyə etmirlər.**

Qida mütəxəssisi Məhsəti Hüseynova: *"Hazırda satışda olan qarpız və yemişlər təbii şəkildə yetişməyən, süni maddələr, nitratlar və kimyəvi maddələr hesabına əmələ gələnlərdir. Normal halda qarpış-yemiş tərkibinə görə çox zəngin və xeyirlidir. Onun insan orqanizminə bir çox faydaları var, çünki həm vitamin-mineral dəyəri olaraq, həm də lif baxımından çox faydalıdır. Ancaq hazırda satışa çıxarılan məhsulların tərkibində vitamin və mineral dəyəri yoxdur və ya çox az miqdardadır. Eyni zamanda tərkibindəki nitrat və kimyəvi maddələr sağlamlıq üçün zərərlidir".*

Qida texnoloqları aqrokimyəvi maddələrlə yetişdirilən həmin giləmeyvələrin tərkibindəki nitrat miqdarının normadan iki dəfə artıq olduğunu deyirlər. *"Həmin məhsulların qəbul edilməsi xüsusilə həzm sistemində pozulmalara səbəb olur, eyni zamanda, maddələr mübadiləsinin sürətinin yavaşımasına, bununla yanaşı qanda zəhərlənməyə səbəb olur. Doğrudur, bəzən immun sistemi güclü olanlarda bəzən bu, özünü göstərmir, yaxud da daxili əlamətlərlə özünü göstərir. Ancaq uşaqlarda, xroniki xəstəliyi olanlarda, immun sistemi zəif olanlarda müxtəlif əlamətlərlə özünü göstərir və bu, kəskin zəhərlənmə və ölümə qədər gətirib çıxara bilər"*, - deyə müsahibimiz bildirib.

Hər şey vaxtında və qədərində gözəldir. Ona görə də həmin nemətləri vaxtında və tam yetişmiş halda dadmaq lazımdır ki, onun ziyanını yox, faydasını görəsən.

# Yağlı şorbalar yaşlı insanlar üçün zərərlidir

Yağlı bulyon əsasında hazırlanmış şorbalar yüksək səviyyədə xolesterini olan insanlar üçün təhlükəli hesab olunur – bu problem, bir qayda olaraq, yaşlı insanlarda geniş şəkildə yayılıb. Diyetoloq Yelena Solomatinanın sözlərinə görə, yağlı şorbalar yaşlı insanlar üçün təhlükəlidir, çünki onlar insult və infarkt riskini artırır. *"Xüsusilə mal ətindən hazırlanmış yağlı şorbalar xolesterinin artmasına, aterosklerotik lövhələrin yığılmasına səbəb ola bilər"*, – deyə diyetoloq bildirib.

Tibb işçisi yaşlı (60 yaş və yuxarı) insanların rasionuna hansı şorbaların daxil edilməsi barədə məlumat verib.

Əlavə məhsullarla şorba. Mütəxəssis xəbərdarlıq edib ki, əlavə məhsulların tərkibində həddindən artıq xolesterin var və bu, hətta yağlı ətin miqdarından daha çoxdur.

Noxudlu və lobyalı şorba. Belə şorbalar 60 yaşdan sonra orqanizmdə çətinliklə həzm olunur, bir çox hallarda bu cür mürəkkəb karbohidratlar artıq həzm olunmur.

Göbələkli şorba. Yelena Solomatina qeyd edib ki, göbələklərin həzm olunması da yaşlı insanların həzm sistemi üçün həddindən artıq ağırdır. *"Göbələkli şorbalar çox vaxt mədəbağırsaq traktında müxtəlif iltihablı reaksiyalara və ya hansısa müəyyən proseslərin kəskinləşməsinə səbəb olur".*

Südlü şorba. Südün həzm olunması yaşlaşdıqca çətinləşir, çünki orqanizmdə bunun üçün lazım olan fermentin (laktozanın) istehsalı azalır. Nəticədə



şişkinlik, qarın ağrısı, fermentasiya, qaz əmələ gəlir.

Düyü şorbası. Həkim izah edib ki, ağ düyü yüksək glisemik indeksə malikdir və onun qəbulundan sonra qanda şəkərin səviyyəsi kəskin şəkildə artır.

Duzlu şorba. Bu şorbada çox maddələr var, onları həzm etmək üçün daha sağlam həzm sistemi tələb olunur. Yaşlı insan üçün bu həddindən artıq böyük yükdür.

Ədviyyatlı şorba. Diyetoloq deyib ki, belə şorbalar çox vaxt yaşı 60-dan yuxarı insanlarda olan mədə-bağırsaq traktının inkişaf etməyən xəstəliklərinin kəskinləşməsinə səbəb ola bilər.

Turşəngli və ya gicitkənli şorba. Solomatina vurğulayıb ki, böyük miqdarda gicitkən qanın laxtalanmasına, oksalik tur-

şusu isə podaqranın kəskinləşməsinə səbəb ola bilər.

*"Vegetarian şorbalara üstünlük vermək daha məsləhətdir. Onlar gül kələmindən, brokolidən, yerkökündən hazırlana bilər. Bunlardan şorba-püre də hazırlamaq olar. Balqabaq şorbaları çox faydalıdır, demək olar ki, əks göstəriciləri yoxdur. Yeməyi arpa əlavə edərək də bişirmək olar. Balıq şorbaları, yağlı olmayan hind toyuğu bulyonları da ola bilər"*, - deyə ekspert bölüşüb.

# Vaxtından gec qəbul olunan şam yeməyi diabet və digər xəstəliklərə səbəb ola bilər



İnsan orqanizminin metabolik sisteminin fəaliyyəti əzəldən günorta yemək yeməyə, gecə vaxtı isə aclıq etməyə köklənib. Bu prinsipə riayət edilməməsi maddələr mübadiləsində pozuntularla bağlı ciddi problemlərin yaranmasına səbəb ola bilər. Bu barədə həkim-endokrinoloq Yelena Prokopenko bildirib. O hesab edir ki, vaxtından gec qəbul olunan şam yeməyi diabetin inkişafı riskini artırır və digər xəstəliklərin yaranmasına təsir edə bilər.

Yelena Prokopenko dəqiqləşdirib ki, vaxtından gec qəbul olunan qida qəbulunun sağlamlığa mənfi təsiri qəbul edilən qida məhsullarının növündən asılı deyil. Onlar orqanizmdə mənfi hormonal dəyişikliklərə, metabolizmin ləngiməsinə, artıq çəkinin yaranmasına meyilliyə səbəb ola bilər.

*"Qidanın gecə vaxtı qəbulu periferik parçalarda insulinə qarşı həssaslığı və mədəaltı vəzi tərəfindən onun istehsalını dəyişdirir. Bundan başqa, o, gecə vaxtı vegetativ sinir sisteminin işinə və eləcə də qan təzyiqinə, bədən temperaturuna, iltihabın və plazma zülallarının göstəricilərinə, bağırsaq, dəri, digər orqanların mikrobiotasına təsir edir"*, - deyə ekspert əlavə edib.

Endokrinoloq vurğulayıb ki, mənfi təsir hətta birdəfəlik gecə yeməyi qəbulu halında da müşahidə olunur. Bu zaman insanda qanda şəkər konsentrasiyası artır. Qida saat 20.00-dan sonra qəbul olunduqda, piy yığınlarının artması riski insanın yuxuya getməsi vaxtından asılı olmayaraq artır.



## Kalium ilə zəngin olan təzə kartof yaşlı insanlar üçün faydalıdır

**Təzə kartof C vitamini və böyük miqdarda kalium ilə zəngindir. Bu, yaşlı insanların ürək-damar sistemi üçün çox faydalıdır.**

Diyetoloq Marqarita Korolyovanın sözlərinə görə, bu qida məhsulu orta miqdarda hətta şəkərli diabeti olan yaşlı insanların rasionuna da daxil edilə bilər. Təzə kartof qabığı ilə qəbul edildikdə daha faydalıdır, çünki o bağırsaq üçün faydalı olan lif və mineral maddələrlə zəngindir.


*Təsisçi:*
Tapdıq Abbas

*Baş redaktor:*
Akif Nəsirli

*Birinci müavin:*
Şahnaz Salehqızı

*İnformasiya şöbəsinin müdiri:*
Röyal Əsədli

*Bölgə müxbirləri:*
Vaqif Cəmiloğlu
Sadıq Sadıqlı
İqbal Məmmədov
Əlizadə Nəhmədağaoğlu
İlkin Əsədzadə

*Qəzet 16 fevral 2003-ci ildən çıxır.*

Ünvan: AZ 1073, Azərbaycan, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, 6-cı mərtəbə "Azərbaycan" nəşriyyatı
Tel: **510 15 07**, Fax: **510 15 06**
E_mail: paralel_qazeta@mail.ru
*Qəzet "Son Dakika" MMC-nin mətbəəsində çap olunub.*
Əlyazmalara rəy verilmir və geri qaytarılmır.
Qeydiyyat №257
Sifariş: **2185** Tiraj: **1550**